QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 082 (5802) **7 may** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymətı 40 qəpik**


# Azərbaycanla Rusiya arasında iqtisadi əlaqələr uğurla inkişaf edir

*Prezident İlham Əliyev "Rusiya Dəmir Yolları" ASC-nin Baş direktoru və idarə heyətinin sədri Oleq Belozyorovu qəbul edib*



Səh 2


Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan xalqını Ramazan ayının başlanması münasibətilə təbrik edib



2

Leyla Əliyeva Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılmasının 5 illiyinə həsr edilmiş tədbirdə iştirak edib



3

YAP "Heydər Əliyev irsi və sosial siyasət" mövzusunda tədbir təşkil edib



4

Əli İnsanov Azərbaycanın bugünkü reallıqlarını çox yaramaz formada təhrif edir



5

BÖYÜK ALİM VƏ QAYĞIKEŞ ANA



6

Putin Qərbi demokratiya zopası ilə döyür



8


## Gündüz Kərimov: Məhkəmə-hüquq sistemində islahatlarla bağlı Fərman strateji sənəddir

Bax 10

*Prezident İlham Əliyevin məhkəmə-hüquq sistemində islahatlarla bağlı imzaladığı Fərman bu sahədə mühüm dəyişikliklərin həyata keçirilməsini nəzərdə tutur. Bu səbəbdən həm cəmiyyət, həm də biznes ictimaiyyətinin bu islahatların müzakirəsində iştirakı əhəmiyyətlidir. AZƏRTAC xəbər verir ki, bu fikirləri Bakıda keçirilən "Azərbaycanda məhkəmə hüquq-islahatları: Azərbaycanda Amerika...*

## Vətəndaşlar "ASAN xidmət"də növbə gözləmədən xidmət ala biləcəklər

Bax 12

*Dünəndən istifadəyə verilən "ASAN xidmət" mobil tətbiqi vətəndaşların işini daha da asanlaşdırmağa hesablanıb. Bu tətbiqi "Android" əməliyyat sistemi ilə çalışan mobil qurğular üzərindən yükləyən vətəndaş özünə şəxsi kabinet yaradır, yararlanmaq istədiyi xidmətə uyğun olaraq "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərindən birini seçir, zəruri sənədlərlə tanış olur və növbə götürür. AZƏRTAC xəbər verir ki...*

## San-Dieqo şəhərində 28 may tarixi Azərbaycan Milli Günü elan edilib

Bax 2

*ABŞ-ın Kaliforniya ştatının San-Dieqo şəhərində 2019-cu il 28 may tarixi Azərbaycan Milli Günü elan edilib. Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan AZƏRTAC-a bildirilib ki, bununla bağlı şəhər meri Kevin Folkoner tərəfindən müvafiq bəyannamə imzalanıb. Ölkəmizin Los-Ancelesdəki baş konsulluğuna göndərilmiş bəyannamədə Azərbaycan xalqının 1918-ci il 28 may tarixində...*


11

Ermənistan 2019-cu ildə: köhnə və yeni problemlər



13

"AXH" rəsmən parçalandı!



14

Moskva aeroportunda yanan təyyarədə Azərbaycan vətəndaşı olmayıb





# Azərbaycanla Rusiya arasında iqtisadi əlaqələr uğurla inkişaf edir

*Prezident İlham Əliyev "Rusiya Dəmir Yolları" ASC-nin Baş direktoru və idarə heyətinin sədri Oleq Belozyorovu qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da "Rusiya Dəmir Yolları" Açıq Səhmdar Cəmiyyətinin Baş direktoru və idarə heyətinin sədri Oleq Belozyorovu qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan tərəfinin Rusiya Dəmir Yolları ilə əməkdaşlıqdan məmnunluğunu bildirərək, Oleq Belozyorovun ölkəmizə səfərinin əlaqələrin perspektivləri ilə bağlı səmərəli müzakirələrin aparılması üçün yaxşı imkan yaratdığını dedi. Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Azərbaycanla Rusiyanın dəmir yolu sahəsindəki imkanları gələcəkdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı şərait yaradacaq. Rusiyadan Azərbaycan vasitəsilə tranzit yüklərin artdığını qeyd edən dövlətimizin başçısı bu sahədə yeni addımların atılacağına əminliyini ifadə etdi.

Azərbaycan Dəmir Yolları ilə uğurlu əməkdaşlığın həyata keçirildiyini deyən "Rusiya Dəmir Yolları" Açıq Səhmdar Cəmiyyətinin Baş direktoru və idarə heyətinin sədri Oleq Belozyorov bu ilin birinci rübündə daşımaların həcminin 25 faiz artmasını bunun çox yaxşı göstəricisi kimi dəyərləndirdi. Dəmir yolu sahəsində əlaqələrin inkişafına iki dövlət başçısının daim dəstək verməsinin böyük önəm daşıdığını qeyd edən qonaq tranzitin təşkili və yeni marşrutların müəyyən edilməsinin ölkələrimizin iqtisadi inkişafına öz töhfəsini verdiyini bildirdi. Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan xalqını Ramazan ayının başlanması münasibətilə təbrik edib

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Azərbaycan xalqını Ramazan ayının başlanması münasibətilə təbrik edib.***



Trend-in məlumatına görə, təbrikdə deyilir: "Əziz həmvətənlər. Sizi Ramazan ayının - oruclıq və mənəvi yenilənmə, düşünmək və dua etmək, bağışlamaq və mərhəmət ayının başlanması münasibətilə təbrik edirəm. Bu müqəddəs ay bütün dünyada milyonlarla müsəlman üçün mənəvi kamilləşmə, nəcib və xeyirxah işlər dövrüdür.

Azərbaycanda çoxəsrlik tarixi olan mənəvi ənənələrə hörmətlə yanaşılır. Bu ənənələrin əxlaqi və etik əsasları dəyişməz qalır. Çünki yaxınlarına qayğı, xeyirxahlıq və mərhəmət bütün dövrlərdə yüksək qiymətləndirilib.

Əminəm ki, Ramazan ayı birlik və həmrəylik, hörmət və qarşılıqlı anlaşma dövrü olacaq. Qoy Ulu Tanrı bu müqəddəs günlərdə sizin bütün dualarınızı eşitsin və qəbul etsin. Sizə sülh, xoş günlər, səadət və rifah arzulayıram".

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Heydər Əliyev Fondu əməkdaşlarının təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev dövlətə məxsus olan hüquqi şəxslərdə apellyasiya şuralarının yaradılması haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Horadiz şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin layihələndirilməsi və yenidən qurulması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

# San-Dieqo şəhərində 28 may tarixi Azərbaycan Milli Günü elan edilib



The City of San Diego

Proclamation

Presented By Mayor Kevin L. Faulconer

**AZERBAIJAN NATIONAL DAY**

May 28, 2019

**WHEREAS,** following the October Revolution in the Russian Empire, the Azerbaijani people established the Azerbaijan Democratic Republic on May 28, 1918, which became the first secular democracy in the entire Muslim world; and

**WHEREAS,** the new democracy enacted many progressive reforms, including granting the right to vote to women in 1918, which made Azerbaijan not only the first majority-Muslim nation to empower women, but it also a world leader in championing women's rights; and

**WHEREAS,** the United States of America was one of the first countries to recognize the Republic of Azerbaijan and establish full-fledged diplomatic relations with it; and

**WHEREAS,** since 1991, the Republic of Azerbaijan has consolidated its freedom and independence, and has become one of the world's fastest developing and modernizing countries and the biggest U.S. trade partner in the South Caucasus; and

**WHEREAS,** represented by its Consulate General in Los Angeles, Azerbaijan has formed strong economic, cultural and other partnerships throughout Western United States; and

**WHEREAS,** every year, millions of Azerbaijanis around the globe, including tens of thousands in the U.S. and many in the City of San Diego observe May 28 as Azerbaijan National Day, and remember the contributions of their forefathers to the spread of democracy in the regions of Caucasus, Central Asia and Middle East, as well as celebrate the remarkable achievements made by the Republic of Azerbaijan as a free and independent nation; **NOW, THEREFORE,**

**BE IT PROCLAIMED,** that I, Mayor Kevin L. Faulconer, the 36th Mayor of the City of San Diego, for and on behalf of the citizens of San Diego, do hereby proclaim May 28, 2019, to be "**AZERBAIJAN NATIONAL DAY**" in the City of San Diego.

IN WITNESS WHEREOF, I HAVE HEREUNTO SET MY HAND, THIS DAY, AND HAVE CAUSED THE SEAL TO BE AFFIXED HERETO:

Kevin L. Faulconer
MAYOR

May 28, 2019
DATE

***ABŞ-ın Kaliforniya ştatının San-Dieqo şəhərində 2019-cu il 28 may tarixi Azərbaycan Milli Günü elan edilib. Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan AZƏRTAC-a bildirilib ki, bununla bağlı şəhər meri Kevin Folkoner tərəfindən müvafiq bəyannamə imzalanıb. Ölkəmizin Los-Ancelesdəki baş konsulluğuna göndərilmiş bəyannamədə Azərbaycan xalqının 1918-ci il 28 may tarixində müsəlman dünyasında ilk dünyəvi və demokratik respublika yaratdığı, həmin respublikanın qısa müddətdə böyük sayda mütərəqqi islahatlara imza atdığı, nəinki müsəlman dünyasında ilk dəfə, eləcə də dövrün bir sıra qabaqcıl dövlətlərindən də əvvəl qadınlara səsvermə hüququ verdiyi vurğulanır. Həmçinin bu respublikanın ABŞ və digər demokratik dövlətlər tərəfindən tanındığı qeyd olunur.***

Bəyannamədə Azərbaycanın 1991-ci ildə öz müstəqilliyini bərpa etdikdən sonra ABŞ-ın ölkəmizi tanıyan və onunla diplomatik münasibətlər quran ilk dövlətlərdən biri olduğu bildirilir. Ölkəmizin müstəqilliyini bərpa etdikdən sonra öz suverenliyini və müstəqilliyini gücləndirdiyi, dünyanın ən sürətlə inkişaf edən və çağdaşlaşan dövlətlərindən birinə çevrildiyi, bu gün regionun ən böyük iqtisadiyyata malik ölkəsi və ABŞ-ın Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşı olduğu vurğulanır.

Sənəddə qeyd olunur ki, Los-Ancelesdəki baş konsulluğu vasitəsilə Azərbaycan ABŞ-ın Qərb ştatları ilə iqtisadi, mədəni və digər sahələrdə güclü əlaqələr qurub.

Bəyannamədə, həmçinin ABŞ və San-Dieqo şəhəri də daxil olmaqla, bütün dünyada yaşayan azərbaycanlıların 28 may tarixini Azərbaycanın Milli Günü kimi bayram edərək, öz ata-babalarının Qafqaz, Mərkəzi Asiya və Yaxın Şərq regionlarında demokratiyanın yayılmasına verdiyi töhfələri xatırladığı və Azərbaycan Respublikasının azad və müstəqil dövlət kimi önəmli uğurlarını qeyd etdiyi bildirilir.

Bəyannamənin sonunda mer K.Folkoner tərəfindən şəhər sakinləri adından 28 may tarixi San-Dieqoda Azərbaycan Milli Günü elan edilir.

Qeyd edək ki, Kaliforniyanın ikinci və ABŞ-ın 8-ci ən böyük şəhəri olan San Dieqo ilə Bakı arasında 2011-ci ildən tərəfdaşlıq münasibətləri qurulub və bu münasibətlər son 8 ildə sürətlə inkişaf edib.





# Leyla Əliyeva Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılmasının 5 illiyinə həsr edilmiş tədbirdə iştirak edib

***Mayın 6-da Beynəlxalq Muğam Mərkəzində Azərbaycan multikulturalizminin banisi ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) yaradılmasının 5 illiyinə həsr edilmiş tədbir keçirilib. Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının üzvü Leyla Əliyeva iştirak edib.***

Əvvəlcə Azərbaycanın dövlət himni səsləndirilib. Sonra BBMM-in icraçı direktoru Rəvan Həsənov çıxış edərək deyib ki, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli Fərmanı ilə yaradılıb. Mərkəzin yaradılmasında əsas məqsəd ondan ibarət idi ki, Azərbaycanın sahib olduğu multikulturalizm dəyərləri, mədəniyyətlərarası və xalqlararası dostluq təbliğ olunsun. Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan dünyada multikulturalizm ünvanlarından biri kimi tanınır. Bu, dövlətimizin başçısının siyasətidir. BBMM də bu siyasətə öz töhfəsini verir.



Sonra BBMM-in 5 illik fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri, Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdullayev ötən 5 il ərzində görülən işlərdən danışıb. Bildirib ki, multikulturalizmin mənəvi, qürurverici istiqamətini Prezident İlham Əliyev müəyyən edib. Dövlətimizin başçısı 5 il bundan əvvəl deyib ki, Azərbaycan xalqının qanındakı multikulturalizm əhval-ruhiyyəsini bütün dünya daha yaxşı bilməlidir.



Kamal Abdullayev deyib ki, Azərbaycanda müxtəlif dini konfessiyaların, etnik qrupların nümayəndələri qardaşlıq şəraitində yaşayırlar. Azərbaycan Prezidenti İlham Əliyev sübut etdi ki, multikulturalizmin şərəfli və nikbin bir qütbü də var. BBMM yarananda dövlətimizin başçısı qarşıya vəzifə qoymuşdu ki, Azərbaycan multikulturalizmi hərəkatı bütün dünyanın nəzərinə çatdırılsın. Hesab edirəm ki, BBMM bu vəzifənin öhdəsindən gəldi. Dünyanın 20-yə yaxın universitetində Azərbaycan multikulturalizmi fənni tədris olunur, dərsliklər çap edilir. Bu fənni keçən gənclər qış və yay məktəblərində iştirak edirlər.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov deyib ki, BBMM müasir dövrdə Azərbaycanın ictimai-siyasi, mədəni həyatında mühüm rol oynayır. Multikulturalizm Azərbaycanın dövlət siyasətidir. Bu siyasətin əsasında ölkənin etnik, dini, dil, mədəni müxtəlifliyinin qorunması durur. Bu siyasət ölkədəki inteqrasiya siyasətini möhkəmləndirir. Mərkəz Azərbaycanın multikulturalizm siyasətinin həyata keçirilməsində mühüm rol oynayır. Multikulturalizm siyasəti həm daxili, həm xarici siyasətdə özünü açıq büruzə verir. BBMM ölkəmizin əhalisinə Azərbaycan multikulturalizmi siyasətinin əsaslarını çatdırır. Bu istiqamətdə mərkəzin layihələrindən biri də ali məktəblərdə tədris olunan "Multikulturalizmə giriş" və "Azərbaycan multikulturalizmi" fənləridir. Bu layihə 2015-ci ildən həyata keçirilir. Bu fənn seçmə fənn idi. Ötən 4 il ərzində onun əhəmiyyəti özünü büruzə verdi və qərara alındı ki, bu fənn məcburi fənn kimi tədris olunsun. Bu fənn gənclərdə Azərbaycanın multikulturalizm siyasəti, ölkəmizdə etnik-mədəni müxtəlifliyin qorunması istiqamətində aparılan işlər haqqında biliklər artırır.

Təhsil nazirinin müavini Firudin Qurbanov deyib ki, Azərbaycanın qədim tarixi, zəngin mədəniyyəti var. Bu mədəniyyət qorunub saxlanılır və nəsildən-nəslə ötürülür. Azərbaycan xalqı digər mədəniyyətlərə, dinlərə hörmətlə yanaşıb. Bu, bizim qanımızdadır. Ölkəmizdə bu gün bir çox mədəniyyət nümunələri qorunub saxlanılır və onlara hörmətlə yanaşılır. Bu, Azərbaycan xalqının böyüklüyünü göstərir. Əcdadlarımız bu ənənəni qoruyub saxlayırlar.

Nazir müavini qeyd edib ki, Azərbaycanda multikulturalizm siyasəti dövlət siyasəti səviyyəsinə qaldırılıb. BBMM-in 7 ölkədə filialı fəaliyyət göstərir. Ölkəmizdə multikulturalizm fənninə böyük diqqət göstərilir. "Multikulturalizmə giriş" fənni bakalavr, "Azərbaycan multikulturalizmi" fənni isə magistr pilləsində tədris olunacaq.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov deyib ki, Dövlət Komitəsi ötən 5 ildə BBMM-lə yaxından əməkdaşlıq edib. Multikulturalizm Azərbaycan xalqının yüzilliklər ərzində yığdığı böyük mənəvi sərmayədir. Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində BBMM Azərbaycan həqiqətlərini, ölkəmizin imicinin daha da yaxşılaşdırılması baxımından önəmli bazaya çevrilib. Dövlətimizin başçısının uzaqgörən siyasəti nəticəsində mənəvi sərmayə cəmiyyətimizin, dövlətimizin milli təhlükəsizliyi baxımından da önəmli amilə çevrilib. BBMM-in fəaliyyəti, həmçinin Azərbaycan xalqının mənəvi zənginliyinin, Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasına kömək edir.



BBMM-in Himayəçilik Şurasının üzvü Aleksandr Şarovski, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev, Bakı Dağ Yəhudiləri dini icmasının sədri Melih Yevdayev, Roma Katolik Kilsəsinin ordinarisi Vladimir Fekete Azərbaycandakı multikultural, tolerant mühitin üstünlüklərindən danışıblar. Onlar Azərbaycanın multikulturalizm siyasəti sahəsində əldə etdiyi uğurların dünya dövlətləri, ölkəmizə gələn qonaqlar tərəfindən də etiraf edildiyini və yüksək qiymətləndirildiyini bildiriblər. Azərbaycanda multikulturalizmin həyat tərzi olduğu, ölkəmizdə multikultural dəyərlərin, tolerantlıq ənənələrinin əsrlərə söykəndiyi qeyd edilib. Azərbaycanın multikultural dəyərlərinin dünyada tanıdılması baxımından BBMM-in fəaliyyəti yüksək qiymətləndirilib.

BBMM-in ABŞ nümayəndəliyinin rəhbəri Janna Skot multikulturalizmin etnik mənsubiyyətindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycanın hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrildiyini və bunun təqdirəlayiq olduğunu deyib. J.Skot BBMM-in fəaliyyətindən danışaraq bildirib ki, Mərkəzin sayəsində Azərbaycanda baş verən hadisələr, buradakı multikultural mühit barədə məlumat almaq mümkündür.

BBMM-in Moldova nümayəndəliyinin rəhbəri Aurelia Qriqoriu multikulturalizmin Azərbaycanda həyat tərzi olduğunu qeyd edib. O deyib ki, indi dünya təhlükə ilə üzləşib, ekstremizm yaşanır. Bu siyasətin sonu yoxdur. Bu siyasətə alternativi Azərbaycan Prezidenti İlham Əliyev özünün uzaqgörən, müdrik siyasəti ilə göstərdi. Azərbaycan Prezidenti İlham Əliyev göstərdi ki, çıxış yolu multikulturalizm siyasətidir. Multikulturalizm Azərbaycanda dövlət siyasətidir. Bu, bir fenomendir. Azərbaycanın 20 faiz torpaqları işğal altındadır, 1 milyondan çox qaçqın və məcburi köçkün var. Buna baxmayaraq Azərbaycan sülh, hörmət insansevərlik ab-havasını təmin edir. Azərbaycan dünyanın 5 ən tolerant ölkəsi siyahısındadır və dini tolerantlığın nümunəsi sayılır.

BBMM-in Almaniya nümayəndəliyinin rəhbəri Birgit Vaysgerber deyib ki, o, Azərbaycana olan sevgisini Almaniya xalqına aşılamaq istəyir. O, Azərbaycanın tarixi, mədəniyyəti, adət-ənənələri ilə yaxından tanış olmaq imkanını əldə etdiyi üçün BBMM-ə təşəkkürünü bildirib. Yubiley tədbiri bədii hissə ilə davam edib. Tədbir çərçivəsində, həmçinin gənc rəssamların multikulturalizm mövzusuna həsr edilən rəsm əsərlərindən ibarət sərgi təşkil olunub.

# YAP “Heydər Əliyev irsi və sosial siyasət” mövzusunda tədbir təşkil edib

***Dünən Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə “Heydər Əliyev irsi və sosial siyasət” mövzusunda tədbir keçirilib. SİA xəbər verir ki, tədbir ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilib. Tədbirdən öncə Yeni Azərbaycan Partiyasının (YAP) rəhbərliyi Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə Fəxri Xiyabanda onun məzarını ziyarət edib.***




Azərbaycanın Baş nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov tədbirdə çıxış edərək ulu öndər Heydər Əliyevin xalqımızın rifahı, dövlətimizin inkişafı üçün gördüyü işlərdən danışıb. Bildirilib ki, Ümummilli Liderin apardığı siyasətin əsasında sosial siyasət dururdu. Bu gün bu siyasət Prezident İlham Əliyev tərəfindən davam və inkişaf etdirilir. Sosial rifah məsələsi, əhalinin həyat şəraitinin daha da yaxşılaşdırılması dövlətimizin başçısının apardığı siyasətin əsas sahələrindəndir. Son bir neçə ay ərzində əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması ilə bağlı Prezident İlham Əliyev tərəfindən əhəmiyyətli qərarlar qəbul edilib. Bu işlər bundan sonra da davam etdiriləcək.

“Bütün Azərbaycan xalqı bu gün ulu öndər Heydər Əliyevn xatirəsini dərin ehtiramla yad edir. Bu, təsadüfi deyil. Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətinə xalq dərin hörmət və ehtiramla yanaşır. Heydər Əliyevn xatirəsi nəinki insanların qəlbində yaşayır, eyni zamanda onun siyasəti bu gün də davam edir. Bugünkü Azərbaycan Heydər Əliyev ideyalarının bariz nümunəsidir. Heydər Əliyevin böyük dövlətçilik təcrübəsində sosial məsələlər daim əhəmiyyətli yer tutub və bu da ulu öndərin insanların qəlbində yer tapmasının izahlarından biri ola bilər. Prezident İlham Əliyevin uğurla reallaşdırdığı siyasətin mərkəzində Azərbaycan vətəndaşlarının rifahı, sosial vəziyyətinin yaxşılaşdırılması kimi mühüm məsələlər dayanır. Ən mühüm məsələ, birincisi, vətəndaşın təhlükəsizliyinin təmin edilməsi, ikinci isə rifahının yaxşılaşdırılmasıdır. Azərbaycan dövləti hər iki vəzifəni layiqincə yerinə yetirib. İnsanların güzəranın yaxşılaşdırılması Prezident İlham Əliyevin siyasətinin ən başlıca istiqamətlərindəndir”, - deyə Ə.Əhmədov bildirib.

Baş nazirin müavini vurğulayıb ki, Prezident İlham Əliyev vətəndaşların rifahının yaxşılaşdırılması üçün daim addımlar atır: “Son bir neçə ayda Prezident tərəfindən imzalanan fərman və sərəncamlar vətəndaşların həyat səviyyəsinin yüksəlməsinə əhəmiyyətli dərəcədə təsir edib. Əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində bundan sonra da addımlar atılacaq”.

















Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Ümummilli Liderin ölkəmizə rəhbərlik etdiyi illəri quruculuq, abadlıq, inkişaf dövrü kimi xarakterizə edib. Bildirib ki, Ulu Öndərimiz xüsusi qayğıya ehtiyacı olan şəxslərə böyük diqqətlə yanaşır, onların ehtiyaclarının ödənilməsini daim diqqətdə saxlayırdı. Hazırda Prezident İlham Əliyev bu siyasəti uğurla davam etdirir.

Nazir qeyd edib ki, Azərbaycan dünyada yoxsulluğu beş faizə endirən 29 ölkədən biridir. 2003-cü ildən bu günədək əməkhaqları yeddi dəfə artırılıb. Minimum əməkhaqqı dəfələrlə artırılıb. Minimum pensiya 40 faiz artırılıb. Prezident İlham Əliyevin qəbul etdiyi bu mühüm qərarlar ölkəmizdə sosial ədalətin qorunduğunun əyani göstəricisidir.

Tədbir bədii hissə ilə davam edib.

# Əli İnsanov Azərbaycanın bugünkü reallıqlarını çox yaramaz formada təhrif edir

*Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədovun yap.org.az-a müsahibəsi*

**Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədov Prezident İlham Əliyevin əfv Sərəncamı ilə azadlığa buraxılmış Əli İnsanovun qeyri-insani hərəkətləri, eləcə də bütövlükdə müxalifət düşərgəsinin antimilli düşüncə və hərəkətləri ilə bağlı "Trend"-ə geniş müsahibə vermişdir. yap.org.az mövzunun aktuallığını nəzərə alaraq, həmin müsahibəni öz oxucularına təqdim edir.**

*- Əli müəllim, əvvəlcə müsahibəyə vaxt ayırdığınıza görə təşəkkür edirik. İlk olaraq son günlərdə Azərbaycan iqtidarı əleyhinə əsassız bəyanatlar səsləndirən Əli İnsanovun davranışına qiymət verməyinizi istərdik.*

- Əli İnsanov Prezident İlham Əliyevin humanist addımı ilə əfv sərəncamı əsasında vaxtından əvvəl azadlığa buraxıldı. Hesab edirəm ki, ləyaqət hissini itirməyən istənilən adam ölkə başçısının bu jestinə uyğun davranış sərgiləməli idi. Ən azından bir təşəkkür ifadə etməli idi. Dəfələrlə Heydər Əliyevə sadiq olduğunu bəyan edən insan onun məzarını ziyarət etməli idi. Əli İnsanov isə bunu etmədi və cəmiyyətdə ona qarşı münasibət daha da pisləşməyə doğru dəyişdi.

Əli İnsanov təşəkkür etmək əvəzinə mətbuata verdiyi müsahibədə şər və böhtan atmağa davam etdi. Biz Yeni Azərbaycan Partiyası olaraq Əli İnsanovun mətbuatda hər hansı bir bəyanatla çıxış etməsinə etiraz etmirik. Bizim etirazımız onun bəyanatında səsləndirdiyi və təbii olaraq Azərbaycanın milli maraqlarına uyğun gəlməyən məqamlarla bağlıdır.

Əli İnsanov erməni lobbisinin dəstəyinə arxalanmaq məqsədilə onların müdafiəçisi kimi çıxış etməyə başlayıb. Düşünürəm ki, bunun əsas səbəbi onunla əlaqədardır ki, Əli İnsanov azadlığa çıxdıqdan sonra ümid etdiyi xalqın dəstəyini görmədi və özünü ermənilərin, eləcə də onların lobbisinin qanadının altına salmağa çalışdı. O bəyan edib ki, guya ermənilər ona görə ölkəmizə qarşı separatçı mübarizəyə başlayıblar ki, onların Azərbaycanda hüquqları pozulur.

Güman edirəm ki, Əli İnsanov ermənilərin Azərbaycana qarşı separatçı hərəkətlərinin 1988-1989-cu illərdə başladığından xəbərsiz ola bilməz. Çünki onun da o vaxt Ermənistanda yaşayan qohum-əqrəbaları həmin illərdə deportasiyaya məruz qalıblar. Əli İnsanov bu faktı insafsızcasına təhrif edərək ermənilərin separatçı hərəkətlərinin mənbəyi kimi



guya Azərbaycanda yaşamaq imkanlarının məhdudlaşdırılmasını önə çəkir.

Əlbəttə ki, Əli İnsanov bununla hamıya məlum olan böyük tarixi faktlara da böyük kölgə salmış olur. Məsələn, 1905-1907-ci, 1915-1918-ci illərdə ermənilər tərəfindən Azərbaycana olan çoxsaylı hücumlar, Bakı, Şamaxı və digər şəhərlərimizdə günahsız azərbaycanlıların kütləvi şəkildə qətlə yetirilməsi, onların türkə, azərbaycanlıya olan nifrətindən qaynaqlanan mübarizəsi kimi reallığa çevrilib. Bütün bunları bilərək onun - təbii ki, Əli İnsanov bunları bilməmiş deyil - ermənilərin guya Azərbaycan iqtidarının günahı ucbatından Azərbaycandan narazı düşməsi haqqında əsassız bəyanatları üzücüdür. Bu əsassız bəyanatların bir adı var - milli xəyanət. Bu, Azərbaycanın milli maraqlarını torpaqlarımızı işğal etmiş erməni separatçılarının ayaqlarının altına atmaqdır.

Son çıxışında o özünü daha çox ermənilərin müdafiəçisi kimi təqdim etməyə çalışır. Hesab edirəm ki, Əli İnsanovun bu hərəkətləri Azərbaycan xalqı tərəfindən bağışlanılmayacaq.

*- O bəyan edir ki, hər hansı bir siyasi partiya yaratmaq fikrindədir. Bu siyasi partiyaya o, kimləri cəlb edəcək? Erməniləri, erməni diasporunu?*

Əli İnsanov Azərbaycanın bugünkü reallıqlarını çox yaramaz formada təhrif edir. Guya Azərbaycanda insan hüquqları pozulur, əhali çətinliklər içərisində yaşayır. Əli İnsanov Bakının timsalında Azərbaycanda nə qədər möhtəşəm dəyişikliklərin baş verdiyinin şahidi ola-ola bütün bu gerçəkliklərə göz yumur. Bu isə onun məkrli niyyətindən xəbər verir.

İnsanın bir siması, vahid mövqeyi olmalıdır. Vaxtilə Azərbaycanda 10 il müddətində nazir vəzifəsində işləyərkən iqtidarı bəlağətlə tərifləyib, müxalifətə qarşı kəskin mövqe nümayiş etdirən Əli İnsanov bu gün tamamilə əksini söyləyir. Belə olan halda bir söz ortaya çıxır - simasızlıq.

*- Əli müəllim, sosial şəbəkələrdə saxta profillərdən istifadə edərək Azərbaycana, ayrı-ayrı insanlara qarşı qarayaxma kampaniyasının aparılması da bu gün cəmiyyəti narahat edən problemlərdən biridir. Sizcə, bu cür kampaniyalar hansı məqsəd daşıyır?*

- Azərbaycanda söz, mətbuat, fikir, vicdan azadlığı təmin olunub. İstənilən insan öz fikrini açıq şəkildə ifadə etmək imkanına malikdir. Eyni zamanda insanların siyasi hüquq və azadlıqları təmin olunub, ayrı-ayrı siyasi təşkilatlarda birləşə bilirlər, Azərbaycanda çoxlu sayda müxalifət partiyaları var. Reallıq ondan ibarətdir ki, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasət xalqımız tərəfindən birmənalı şəkildə dəstəklənir. Bunun üçün ciddi əsaslar var. Bu əsaslar Azərbaycanın inkişafı, müasirləşmə, yeniləşmə, insanların təhlükəsizliyinin qorunması və özlərini sərbəst hiss etməsi ilə əlaqədardır. Digər bir məqam isə əhalinin sosial rifahının yüksək səviyyədə təmin olunmasıdır.

Son bir neçə ay ərzində Prezident İlham Əliyevin sərəncamları ilə müxtəlif kateqoriyadan olan insanların rifahının yaxşılaşdırılması ilə bağlı addımlar atılıb. Əmək haqları, pensiyalar, müavinətlər, tələbə təqaüdlərinin artırılmasına dövlət tərəfindən böyük vəsaitlər xərclənir. Bütün bunlar birmənalı şəkildə insanların hakimiyyətə olan münasibətinin daha da yaxşılaşması üçün zəmin yaradır. Tam qətiyyətlə deyə bilərik ki, Azərbaycan vətəndaşları mütləq çoxluq etibarilə Prezident İlham Əliyevi, onun həyata keçirdiyi siyasəti dəstəkləyirlər. Bu da təbii olaraq hakimiyyətdə olan partiyanın elektoratının sayını artırır. Belə olan halda isə müxalifətin elektoratı azalır. Müxalifət öz elektoratını formalaşdırıb möhkəmləndirmək üçün mükəmməl konsepsiya və strategiya ortaya qoya bilmir. Bir neçə ildir ki, əks qütbdə olanlar normal bir siyasi platforma müəyyənləşdirib əsas hədəf və niyyətlərini insanlara çatdıra bilməyiblər. Buna görə də Azərbaycan cəmiyyətində bugünkü müxalifətə inam qalmayıb. Bunu mütləq şəkildə etiraf etmək lazımdır.

Müxalifət itirdiyi mövqelərini yanlış yolla bərpa etməyə çalışır. Bu da söyüş, təhqir, böhtan kampaniyasıdır. Bu isə istənilən halda başucalığı gətirmir. Eyni zamanda bu kampaniya onların tərəfdarlarının sayını da azaldır.

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bu gün müasir texnologiyaların yaratdığı imkanlardan çirkin məqsədlə istifadə edənlər var. Onlar sosial şəbəkələrdə saxta profillər, yalançı adlarla az sayda insanlar cəlb etməklə hakimiyyətdə olanları təhqir edir, cəmiyyətin hörmətli üzvlərini təhqirə, mənəvi terrora məruz qoyurlar. İnsanlar onların kimlər tərəfindən təhqir olunduğunu, mənəvi terrora məruz qaldığını bilmirlər. Çünki bunlar yalançı profillər, adı məlum olmayan insanlardır. Bu, Azərbaycan cəmiyyətində ciddi narazılıq mənbəyinə çevrilib. Biz bunu qətiyyətlə pisləyirik. Onlar açıq şəkildə mübarizə aparmalı, öz fikir və məqsədlərini aydın ifadə etməlidirlər. Təhqir və böhtanla hakimiyyət uğrunda mübarizə aparmaq mümkün deyil. Əgər hakimiyyət uğrunda mübarizə aparırsansa, düzgün olmalı, insan hüquqlarına hörmətlə yanaşmalısan. Böhtanla imic formalaşdırmaq mümkün deyil.

Bugünkü müxalifət nümayəndələrinin əksəriyyəti yalnız söyüş söyən, təhqir edən bir marginal bir qrupa çevrilib. Bu, cəmiyyət üçün böyük təhlükə mənbəyidir. Yalnız onların düz yola gələcəyi təqdirdə normal bir situasiya yaranar.

Təəssüf ki, bu gün müxalifət yalan və böhtan təqdim edir. Bu cür insanlarla dialoq aparmaq qeyri-mümkündür. Cəmiyyət müxalifətin mənəviyyatsızlıq mövqeyinə yuvarlanmasını qətiyyətlə pisləyir. Azərbaycanda siyasəti çirkaba çevirmək lazım deyil. Azərbaycan uğurlu bir dövlət kimi özünü təsdiq edib, böyük inkişaf perspektivləri var və hamımız bir vətəndaş olaraq ona çalışmalıyıq ki, ölkəmiz bu inkişaf yolundan hansısa maneələrə görə geri çəkilməsin.

*- Bu gün müxalifət nümayəndələri tərəfindən tez-tez dialoq məsələsi səsləndirilir. Lakin müxalifətin öz daxilində bir parçalanma var. Sizcə dialoq aparıla biləcək müxalifət var?*

- Bugünkü reallıqlardan biri odur ki, Azərbaycan müxalifəti özünü dağıdıcı bir güc kimi ifadə edir. Təsəvvür edin, vaxtilə bir yerdə olan müxalifət partiyaları indi parçalanıb, birləşmək niyyətləri belə yoxdur. Vaxtilə vahid siyasi qüvvə olan Xalq Cəbhəsi, daha sonra Müsavat Partiyası kimi fəaliyyət göstərənlər bir neçə yerə parçalandılar. Onların hakimiyyətdə olduğu 90-cı illərin əvvəllərində cəmiyyət parçalanmışdı. Şimal və Cənubda müəyyən qüvvələr ortaya çıxmışdı, mərkəzdə müxtəlif məqsədlərə və siyasi partiyalara xidmət edən silahlı qüvvələr tüğyan edirdi, ölkə parçalanırdı. Hakimiyyətin daxilində bir-biri ilə mübarizə aparan dəstələr var idi. Bakıdan Gəncəyə, Gəncədən Bakıya silahlı qüvvələr göndərirdilər ki, hakimiyyəti parçalasınlar.

*- Parçalanmağa meyilli qüvvələr cəmiyyəti birləşdirə bilməz. Bu, cəmiyyət üçün böyük fəlakətə gətirib çıxara bilər. Təsəvvür edin, onlar hakimiyyətə gəlsələr, Azərbaycanda nə qədər bir-biri ilə mübarizə aparan hakimiyyətdaxili qüvvələr olar. Onlar dağıtmaq və parçalamağı daha yaxşı bacarır, cəmiyyətin birləşdirici güc mənbəyi kimi özlərini təsdiq edə bilmirlər. Dağıdıcı bir güc kimi fəaliyyət göstərən, birləşə bilməyən, öz aralarında normal dialoq təşkil edə bilməyən bir qüvvə Azərbaycan üçün nə vəd edə bilər?*

Azərbaycan indi çox dəyişib, 90-cı illərin əvvəllərində vəziyyətlə müasir dövrü müqayisə etsək, bunun şahidi olarıq. Tarixi miqyasda baxanda iki Azərbaycan haqqında danışırıq. 90-cı illərin əvvəllərində fəlakətlə üz-üzə qalan, açlıq və səfalətin tuğyan etdiyi, parçalanma ərəfəsində olan və hazırkı, sürətlə inkişaf edən, gözəlləşən, müasirləşən, paytaxtı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilən, dünyanın ən mötəbər tədbirlərinin keçirildiyi Azərbaycan. Bu, mənfur qüvvələrin istəmədiyi Azərbaycandır və imkan verməklə olmaz ki, onlar yenidən fürsət tapıb əldə olunmuş nailiyyətləri dağıtsın, ölkəni yenə də 90-cı illərin əvvəllərindəki vəziyyətə gətirsinlər. Biz bu niyyətlə yaşayan müxalifətin qəti əleyhinəyik.

*- Əli müəllim, müxalif qüvvələrin xarici dairələrin təsiri altına düşməsi də bu gün əsas problemlərdən biridir.*

- "5-ci kolon"a çevrilən müxalif qüvvələr güclü olmasa da, mövcuddur. Onlar müxtəlif niyyətlərlə xaricdən verilən tapşırıqlar, hədiyyələr və stimullaşdırıcı təkliflər əsasında fəaliyyət göstərirlər. Təbii ki, bu, Azərbaycanın nəinki hakimiyyəti üçün, bütövlükdə müstəqilliyi üçün təhlükədir. Azərbaycana qarşı olan ayrı-ayrı qüvvələr tərəfindən maliyyələşən bu qrupların aldıqları bütün tapşırıqlar milli maraqlara tamamilə ziddir.

Biz Azərbaycanın daxilində olan, özlərini siyasi təşkilat adlandıran qrupların "5-ci kolon"a çevrilməsinin qəti əleyhinəyik və bunun qarşısı mütləq şəkildə alınmalıdır.

Xarici ölkələrdə ölkəmizə qarşı təxribat planlarında iştirak edən bəzi azərbaycanlılar da "5-ci kolon"un hissələridir. Onlar əlaqələndirici funksiya yerinə yetirir, müəyyən tapşırıqları burdakı insanlara çatdırır və ideoloji zəmin hazırlayırlar. Bu ideoloji zəmin isə yalan, böhtan, təhqir əsasında həyata keçirilir. Onlar xaricdə sığınacaq alıb, Azərbaycan haqqında iftira yaymaqdadırlar. Bütün bunların hamısı Azərbaycan vətəndaşları tərəfindən düzgün qiymətləndirilir. Sübut etməyə ehtiyac yoxdur, bunu hamı görür.

# BÖYÜK ALİM VƏ QAYĞIKEŞ ANA

## *Akademik Rəfiqə xanım Əliyevanın vəfatından 2 il ötür*

***Azərbaycan xalqının görkəmli elm xadimi, ölkəmizdə analitik kimya sahəsində ilk və yeganə qadın, "Şöhrət" ordenli akademik Rəfiqə xanım Əliyevanın vəfatından 2 il ötür. O, həm də bir şəxsiyyət, elmin və təhsilin vəhdətini yaratmış unudulmaz alim olaraq, adını tariximizə həkk edib.***

Rəfiqə Əlirza qızı Əliyeva 20 sentyabr 1932-ci ildə Azərbaycanın qədim yurdu Naxçıvan şəhərində anadan olub. Orta məktəbi bitirdikdən sonra ali təhsilini 1951-1956-cı illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) kimya fakültəsində alıb. Əmək fəaliyyətinə 1956-1960-cı illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Qeyri-Üzvi və Fiziki Kimya İnstitutunda (indiki akademik M.Nağıyev adına Kataliz və Qeyri-Üzvi Kimya İnstitutu) kiçik elmi işçi vəzifəsində başlayıb. 1960-cı ildə ADU-nun Analitik kimya kafedrasında analitik kimya ixtisası üzrə aspiranturaya qəbul olmuşdur. 1964-cü ildən ömrünün sonuna qədər universitetin Analitik kimya kafedrasında işləmiş və assistent, baş müəllim, dosent, professor vəzifəsinə qədər şərəfli bir həyat yolu keçib. 1970-ci ildə analitik kimya ixtisası üzrə "Germaniumun bəzi üzvi reagentlərlə əmələ gətirdiyi birləşmələrin spektrofotometrik tədqiqi və



***Zərifə Quliyeva,***
***YAP Qadınlar Şurası İdarə Heyətinin üzvü***

onun fotometrik metodla təyini" mövzusunda namizədlik dissertasiyası, 1999-cu ildə isə kimya elmləri doktoru elmi dərəcəsini almaq üçün "d-, f- elementləri və germaniumun tərkibində N-, S-, O- olan liqandlarla müxtəlifliqandlı kompleksləri və onların analitik tətbiqi" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib. 1999-cu ildə analitik kimya ixtisası üzrə professor elmi adını almış və Analitik kimya kafedrasının professoru vəzifəsində çalışıb. 2001-ci ildən ömrünün sonuna kimi BDU-da onun təşəbbüsü ilə yaradılan "Ekoloji kimya və ətraf mühitin mühafizəsi" elmi-tədqiqat laboratoriyasının müdiri vəzifəsində işləyib. 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilib. Bu sahədə Azərbaycanda analitik kimya ixtisası üzrə ilk qadın akademikdir.

Rəfiqə Əliyevanın məhsuldar elmi fəaliyyəti, onun yüksək mənəvi keyfiyyətləri hər zaman yaxın ətrafı, tələbələri, eləcə də dünyanın tanınmış elm xadimləri arasında, xüsusilə, vurğulanıb. Əbəs deyil ki, bu gün onu tanıyanlar da vurğulayırlar ki, Rəfiqə xanım dünyasını dəyişəndən sonra da həyatı davam edən şəxsiyyətlər sırasındadır. Bu baxımdan, ölkəmizin ictimai-sosial həyatında, elmin və təhsilin inkişafında mühüm rol oynamış Rəfiqə Əliyeva onu tanıyanların hər birinin xatirəsində qayğıkeş pedaqoq və alim kimi yaşayır, insanlar onu ən xoş duyğularla xatırlayırlar. Rəfiqə xanım onların bəzilərinin müəllimi, digərlərinin elmi rəhbəri və qayğıkeş məsləhətçisi, başqaları üçün çətin, böhranlı anlarda onlara təsəlli verə biləcək dost və əvəzedilməz həmkar və ən nəhayəti, gözəl ana idi!






Rəfiqə xanım Əliyeva elmi fəaliyyətinin bütün mərhələlərində özündə cəm etdiyi şəxsi keyfiyyətlərini hər kəsə təbliğ edir, insanların sosial yaşam həyatlarında qayğıkeş olmalarını istəyirdi. Yəni yetişdirdiyi kadrlarının şəxsi keyfiyyətlərinin də yüksək məqamlarda olmasını arzulayırdı. O da əbəs deyil ki, elm və təhsil xadimi olaraq, Rəfiqə xanım istedadlı pedaqoq olub. Belə ki, yarım əsrdən artıq müddətdə pedaqoji fəaliyyətlə məşğul olmuş görkəmli elm xadimi bütün bilik və bacarıqlarını yüksək ixtisaslı kadrlar hazırlanmasına sərf edirdi. O öz dərin biliklərini və zəngin təcrübəsini sonrakı nəsillərə çatdırmağı bacaran bir alim kimi böyük elmi məktəb yaradıb. Onun tələbələri təkcə Azərbaycanda deyil, MDB-nin, ABŞ-ın, Kanadanın, Yaponiyanın, Cənubi Koreyanın, Avstraliyanın, İsrailin, Türkiyənin və Avropa ölkələrinin aparıcı elmi mərkəzlərində və universitetlərində çalışırlar, ölkəmizin elmini tərənnüm edirlər, xalqımıza böyük nüfuz qazandırıblar. Bu gün bir çoxları etiraf edirlər ki, belə bir tale heç də hər bir alimə qismət olmur. 450-dən çox elmi iş, 25 dərslik və dərs vəsaiti, 20 patent - bunlar Rəfiqə Əliyevanın çoxillik fəaliyyətinin diqqətəlayiq nəticələridir. Bundan əlavə, onun rəhbərliyi altında 20-dən çox fəlsəfə doktoru və elmlər doktoru hazırlanıb.

Onu da qeyd etmək yerinə düşərdi ki, hələ ötən il Rəfiqə xanım Əliyevanın şərəfinə mükafat təsis edilib. Belə ki, həmin mükafatı "Mənim Azərbaycanım" beynəlxalq jurnalı təsis edib. 2018-ci il sentyabrın 20-də "Şöhrət" ordenli Rəfiqə Əlirza qızı Əliyevanın 86 illiyinin tamam olması ilə bağlı "Akademik Rəfiqə Əliyeva adına Qızıl orden" mükafatının təsis olunması haqqında qərar onun fəaliyyətinə verilən ən yüksək qiymətdir. Belə bir mükafatın təsis edilməsi, həm də belə deməyə əsas verir ki, dünya elminə qiymətli töhfələr vermiş, həyatını öz xalqına həsr etmiş insanlar heç vaxt unudulmur, onların xatirəsi əbədi olaraq xatirələrdə yaşayır. Söz yox ki, akademik Rəfiqə Əliyevanın adını daşıyan bu yüksək mükafata layiq görülmək zəmanəmizin hər bir xadimi üçün böyük şərəf olacaq. Belə ki, Rəfiqə Əliyeva adına Qızıl orden elmi-tədqiqat fəaliyyətində məxsusi xidmətləri olan, mədəniyyətin və incəsənətin inkişafına, xalqlar arasında sülhün, dostluğun və əməkdaşlığın möhkəmlənməsinə görkəmli töhfələr vermiş, parlaq idman nailiyyətləri qazanmış, elmi-texniki tərəqqiyə şərait yaradan sanballı kəşflər etmiş, maarif, təhsil, ictimai həyat sahələrində və sosial sferada nailiyyətlərə imza atmış vətəndaşların təltif olunması üçün təsis edilib.

Akademik Rəfiqə Əliyevanın elmi-pedaqoji fəaliyyəti Azərbaycan dövləti tərəfindən də layiqincə qiymətləndirilmişdir. Azərbaycan Prezidentinin Sərəncamı ilə, o, 2000-ci ildə "Əməkdar elm xadimi", 2009-cu ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir. O, akademik Y.Məmmədəliyev adına mükafatın laureatıdır. 2000-ci ildə akademik Rəfiqə Əliyeva Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü, 2001-ci ildə Amerika Biblioqrafiya İnstitutu tərəfindən "2001-ci ilin adamı" və "2001-ci ilin işgüzar qadını" seçilmişdir. 2003-2004-cü tədris ilində akademik Rəfiqə Əliyeva Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Fəxri fərman"ı ilə təltif olunmuşdur. 2005-ci ildə Bakı Dövlət Universitetinin təsis etdiyi "İlin alimi" fəxri adına, "Ekologiya" və "Ümumi ekologiya" adlı dərs vəsaitləri isə Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsis etdiyi Həsən Əliyev adına mükafata layiq görülmüşdür. Akademik Rəfiqə Əliyeva "Sevil" qadınlar cəmiyyətinin fəxri sədri olmuşdur.

Akademik Rəfiqə Əliyevanın əziz xatirəsi onu tanıyanların, həmkarlarının və tələbələrinin qəlbində həmişə yaşayacaqdır.

## Mərkəzi Seçki Komissiyasında Avropa Şurasının nümayəndə heyəti ilə görüş olub



Mayın 6-da Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov Azərbaycan Respublikasında səfərdə olan Avropa Şurasının Siyasi Məsələlər Direktorluğunun rəhbəri Aleksandr Qesselin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən bildiriblər ki, sədr Məzahir Pənahov görüşdən məmnunluğunu ifadə edib və MSK-nın nüfuzlu beynəlxalq təşkilatlarla, eləcə də Avropa Şurası və onun müxtəlif qurumları ilə uzunmüddətli səmərəli əlaqələrindən söhbət açıb. O qeyd edib ki, MSK beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığa hər zaman mühüm əhəmiyyət verir. Azərbaycanın seçki sahəsində əldə etdiyi uğurlar və seçki praktikasının ilbəil daha da inkişaf edərək hazırkı səviyyəyə çatması məhz Avropa Şurası və digər beynəlxalq qurumlarla əməkdaşlığın nəticəsidir.

Avropa Şurasının Siyasi Məsələlər Direktorluğunun rəhbəri Aleksandr Qessel MSK-dakı səmimi görüşə görə minnətdarlığını bildirib. O, Azərbaycanda seçki təcrübəsinin daha da təkmilləşdirilməsi istiqamətində atılan addımlar, seçici siyahılarının dəqiqləşdirilməsi və siyasi partiyaların maliyyə hesabatları ilə əlaqədar görülən işlərlə maraqlanıb.

Qonaqların suallarını ətraflı cavablandıran M.Pənahov ölkəmizin seçki sistemi, seçici siyahılarının dəqiqləşdirilməsi və siyasi partiyaların maliyyə hesabatlarının MSK-ya təqdim edilməsi fəaliyyəti ilə bağlı geniş məlumat verib, son illər ölkəmizdə keçirilən seçkilərdə əldə olunan nailiyyətləri və qabaqcıl təcrübəni onların diqqətinə çatdırıb.

Avropa Şurası nümayəndə heyətinin üzvləri görüş və əhatəli məlumat üçün MSK sədrinə bir daha təşəkkürlərini bildiriblər. Görüşdə, həmçinin qarşılıqlı əməkdaşlığın inkişaf perspektivləri və maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

## "Heydər Əliyev fəlsəfəsi olub, var və həmişə də olacaq"

"Bu gün ən yüksək səviyyəli nailiyyətlər, Azərbaycanın beynəlxalq aləmdə özünəməxsus yeri tutması, Azərbaycanın bir dövlət kimi özünün sübutu, ölkəmizin xaricdə güclü beynəlxalq münasibətlərə təsir göstərmək imkanına malik olan bir məmləkət kimi təsdiqi Ümummilli Lider Heydər Əliyev fəlsəfəsi ilə bağlıdır". Bunu SİA-ya açıqlamasında Milli Məclisin Beynəlxalq Əlaqələr və Parlamentlərarası Münasibətlər Komitəsinin sədri, Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov deyib. Komitə sədrinin sözlərinə görə, bu gün Azərbaycanın siyasi rəhbərliyi, onun Prezidenti cənab İlham Əliyev Heydər Əliyev fəlsəfəsini real həyata keçirir: "Bu millətimizə imkan yaradır ki, Azərbaycanın bayrağı bütün dünyada ən yüksək səviyyədə yüksəlsin. Ona görə də Heydər Əliyev fəlsəfəsi olub, var və həmişə də olacaq. Niyə? Çünki, Azərbaycan bir millət, dövlət kimi bu fəlsəfəyə söykənən, öz işlərini təşkil edən güclü bir məmləkətdir".

## "Bizim haqq mövqeyimiz Forumda bir daha qorundu"

"Bakıda çox möhtəşəm V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu baş tutdu. Forum çərçivəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çox gözəl çıxışı oldu. Bu Forumda müxtəlif təşkilatların fikirləri səsləndirildi". Bunu SİA-ya açıqlamasında millət vəkili Kəmaləddin Qafarov deyib.

"Xüsusilə Bakı Forumunun mühüm əhəmiyyətini vurğulayan İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-OSAYMİN gözəl fikirlərlə çıxış etdi. Orada qeyd olundu ki, Azərbaycan hökuməti, dövləti haqq yolunda bütün ümumdünya beynəlxalq təşkilatların dəstəyini almalıdır. Təbii ki, bizim haqq mövqeyimiz Forumda bir daha qorundu və bu, bütün dünyanın tanınmış aparıcılarının diqqətinə çatdırıldı. Bu cür Forumlar Azərbaycan dövlətinin, dövlətçiliyinin gələcək fəaliyyətində, uğurlarında çox önəmlidir və lazımlıdır. Xüsusilə, beynəlxalq təşkilatların bunları eşitməsi, bilməsi Azərbaycan hökuməti üçün çox böyük önəmə malikdir"-deyə, deputat fikrini tamamlayıb.

# Heydər Əliyev- Müstəqil Azərbaycan dövlətinin qurucusu və yaradıcısı



***Müstəqillik bəşər tarixi boyu xalqların, millətlərin ən çox arzusunda olduqları siyasi, hüquqi və mənəvi tələbatları arasında əsas nemət olub. Çünki müstəqil olmayan bir xalq və millət daima var ola bilməz. Milli müstəqilliyini əldən vermiş millətlər zaman-zaman başqa xalqların və millətlərin içində assimilyasiyaya uğrayaraq, tarixin arxivlərində qalırlar.***

Hər xalqın, millətin milli və dövlət müstəqilliyinin əldə edilməsində mühüm tarixi missiyaya malik olan dahi şəxsiyyətləri var. Öz xalqlarına milli müstəqillik nemətini daddıra bilən həmin dahilər heç zaman unudulmur. Belə ki, dünya və bəşər tarixində Azərbaycan adlı coğrafi məkanın milli müstəqil dövlət institutu halına gətirilməsi, milli müstəqilliyimizin 70 ildən sonra yenidən bərpası Ulu Öndər Heydər Əliyevə nəsib oldu. Bəli, bu gün birmənalı tərzdə demək olar ki, Dahi Öndər Heydər Əliyev bəşəriyyət tarixində mənsub olduğu xalqa və millətə milli dövlət müstəqilliyini yenidən qazandıra bilən xilaskarlıq fenomenidir. Azərbaycanın milli dövlət müstəqilliyinin yenidən bərpa olunması missiyasının Heydər Əliyev fenomeninə qismət olması, əslində, heç də təsadüfü deyildi. Çünki məhz Ulu Öndərin anadan olduğu illər artıq Azərbaycan Xalq Cümhuriyyəti 23 ay mövcud olduqdan sonra süquta uğradığı zamanlar idi. Ümummilli Lider Heydər Əliyev hələ 1940-cı illərdən başlayaraq Sovet Azərbaycanın dövlət təhlükəsizlik orqanlarında çalışmağa başladığı zamanlarda özünün iti zəkası, güclü məntiqi, tarixi hadisələri düzgün analiz və təhlil etməsi nəticəsində başa düşürdü ki, zor gücü ilə, xalqları və millətləri istismar etməklə, repressiya maşınından keçirməklə qurulmuş sovet rejiminin çox yaşaması mümkün olmayacaq.



***Mehriban ABASQULİYEVA, YAP Sabunçu rayon təşkilatının sədri***

Ulu Öndər, həqiqətən də, dərk edirdi ki, Sovet Azərbaycanı müstəqil Azərbaycan dövlətini sarsıdılmaq üçün qurulmuş bir dövlətdir. Çünki Heydər Əliyev hələ o zamanlar, gənc yaşlarından dövlət təhlükəsizlik orqanlarında çalışmağa başladığı illərdə artıq bunu hiss etməyə başlamışdı. Sovet rejiminin kölə, qul halında saxladığı respublikalarda, Azərbaycanda milli-intellektual ziyalı elitasının 1930-cu illərdə güllələnərək, Uzaq Sibirə sürgün edilərək repressiyalara məruz qaldığını Dahi Öndər Heydər Əliyev öz gözləri ilə görürdü. Dahi Şəxsiyyət, məhz Sovet İttifaqının belə gərgin bir dövründən başlayaraq artıq Azərbaycanda istiqlaliyyət, müstəqillik, azadlıq ideyalarının baş qaldırdığını hiss etmişdi. 1958-ci ildə Bəxtiyar Vahabzadənin əsas qayəsi milli azadlıq və müstəqillik ideyaları olan "Gülüstan" poeması işıq üzü gördü. Artıq bu əsərə görə Bəxtiyar Vahabzadə həbs edilməli idi. Amma Heydər Əliyev onu, nəinki həbs etmədi, hətta xilas etməklə onu qorudu, xalq şairi adı verərək, dövlət mükafatı ilə təltif etdi. Ulu Öndər artıq 1950-60-cı illərdə Təhlükəsizlik Komitəsində (DTK) vəzifə pillələrində qalxdıqca anladı ki, məhz təhlükəsizlik orqanlarında milli azərbaycanlı kadr zabitlərin, əməkdaşların sayı artırılmalıdır. Çünki 30-cu illər repressiyalarında milli müstəqillik, azadlıq, istiqlaliyyət ideyalarının daşıyıcıları olan milli ziyalı elitasını, məhz bu orqanlarda çalışan ermənilər məhv etmişdilər. Gələcəkdə Bəxtiyar Vahabzadələri, yeni milli azadlıq və müstəqillik ideyadaşlarını "KQB" zindanlarından qorumaq üçün təhlükəsizlik orqanlarında azərbaycanlı kadrların sayı artırıldı. Bir əsrdə dəfələrlə azərbaycanlılara qarşı ermənilərin soyqırımı törətməsi faktını Heydər Əliyev dərindən dərk edirdi. Elə buna görə də, Ulu Öndər böyük uzaqgörənlik nümayiş etdirərək, gələcəkdə özünün quracağı milli müstəqil dövlətin onurğası hesab olunan ordunun, silahlı qüvvələrin kadr bazasının əsasını sovet dövründə qoydu.

1971-ci ildə Dahi Öndər Heydər Əliyev C.Naxçıvanski adına İnternatlaşdırılmış Hərbi Məktəbin, məhz Azərbaycanda yaradılması haqqında Moskvadan razılıq ala bildi. Məhz həmin dövrlərdə 10 minə yaxın gənc Naxçıvanski Hərbi Məktəbini bitirərək, Sovet İttifaqında ən nüfuzlu hərbi məktəblərə daxil olaraq, böyük ordu həyatına vəsiqə aldı. Qarabağ müharibəsində Naxçıvanski Hərbi Məktəbinin 1500 nəfərdən çox məzunu erməni işğalçılarına qarşı vuruşlarda əsl qəhrəmanlıq nümunələri göstərdilər. Artıq illər keçdikcə, sovetlər dövründə müstəqil Azərbaycan dövlətinin yaradılması istiqamətində Ulu Öndər Heydər Əliyev, əslində, yaxın gələcək illər üçün milli müstəqilliyin konsepsiyasını və planını çox dəqiqliklə hazırlayırdı. 1970-80-ci illərdə Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 700-dən artıq məktəb binası tikilərək istifadəyə verilmişdi. Bu illərdə respublikada ali təhsil müəssisələrinin sayı 12-dən 17-yə, burada təhsil alan tələbələrin sayı isə 70 mindən 100 minə çatdırıldı. Ümummilli Liderin 70-ci illərdə minlərlə azərbaycanlı gənci respublikamızın hüdudlarından kənarda yüksək ali təhsil almasına, ixtisaslı kadr kimi yetişməsinə hər cür kömək göstərməsi də Onun xeyirxahlığının və bu sahəyə verdiyi önəmin bariz ifadəsidir. Respublikaya birinci rəhbərliyi dövründə 10 mindən artıq gənci keçmiş SSRİ respublikalarının ali məktəblərinə təhsil almağa göndərən Heydər Əliyev yüksək ixtisaslı, vicdanlı və peşəkar kadrların hazırlanması, dövlət idarəçiliyi sisteminin sağlamlaşdırılması məsələlərinə ciddi fikir verirdi. Ulu Öndər Heydər Əliyev Azərbaycanda bir sıra yeni ixtisaslar olan informasiya texnologiyaları, beynəlxalq hüquq, beynəlxalq münasibətlər, aviasiya sahələrində mütəxəssis hazırlayan ali məktəblərin olmadığını nəzərə alaraq, minlərlə azərbaycanlı gəncin Moskva, Kiyev, Minsk və başqa şəhərlərdəki nüfuzlu ali məktəblərə göndərilməsini təmin etdi.

Dahi Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr, bütövlükdə xalqın azadlıq, müstəqillik arzularının gerçəkləşməsinə real hüquqi, siyasi və iqtisadi əsasların yaradılması, bu möhkəm baza üzərində qazanılmış dövlət müstəqilliyinin möhkəmləndirilməsi, xalqın təbii konstitusion hüquqlarına sahib çıxması, milli-mənəvi yüksəlişə nail olması, fərdin özünü vətəndaş kimi dərk etməsi fəxr və iftixar doğuran şanlı epoxanı əhatə edir. Ümummilli Liderin Azərbaycan qarşısındakı əvəzsiz tarixi xidmətlərinin ən qabarıq siyasi təzahürü isə Onun dayanıqlı milli dövlət qurması və onu möhkəmləndirməsidir. Hələ 1991-ci il 18 oktyabr tarixində Heydər Əliyevin də imza atdığı "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" dövlətimizi, rəsmi olaraq, 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Demokratik Respublikasının varisi və müstəqil respublika elan etdi. Dövlət müstəqilliyinin ilk illərində - 1991-ci ildən 1993-cü ilin iyununa qədərki mərhələdə respublikada mövcud olmuş fəlakət və sarsıntılar, ağır sosial-iqtisadi böhran, hərc-mərclik və anarxiya təsdiqlədi ki, dövlət müstəqilliyinin qorunub-saxlanılması onun qazanılmasından qat-qat çətindir. 1991-1993-cü illərdə respublikamız de-yure müstəqil sayılsa da, əslində, bu müstəqillik formal xarakter daşımış, xalqımız ədalətli və sivil dövlətdə yaşamaq arzusunu tam mənada gerçəkləşdirə bilməmişdir. Həmin illərdə Azərbaycanda hakimiyyətdə xalqın etimad göstərdiyi siyasi qüvvənin olmaması dövlət idarəçiliyi mexanizmlərinin formalaşmasında ciddi manevrə çevrilməklə yanaşı, daxili böhranın, vətəndaş itaətsizliyinin, xaos və anarxiyanın yaranmasına rəvac vermiş, qanunçuluğun və hüquq qaydalarının təmini, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun, ən nəhayət, ictimai asayişin qorunması sahəsində əsaslı problemlər yaratmışdı. O zaman hakimiyyətdə olan qüvvələrin səriştəsiz və yarıtmaz fəaliyyəti nəticəsində, hüquqmühafizə orqanlarının üzərinə düşən qanuni vəzifələri həyata keçirə bilməməsi ictimai həyatın müxtəlif sahələrində hərc-mərcliyin baş alıb getməsinə, daxildə qeyri-sabit və təhlükəli vəziyyətə səbəb olmuşdu. Belə ki, müstəqilliyin ilk illərində dövlət idarəçiliyinin iflic vəziyyətinə düşməsi, ayrı-ayrı siyasətçilərin "könüllü döyüşçü" adı altında qanunsuz silahlı dəstələr yaratması nəticə etibarı ilə hakimiyyətdə olan qüvvələrin iflasını daha da sürətləndirirdi. Belə bir şəraitdə, nəinki hüquqi dövlətdən, demokratiyadan, hətta insanların təhlükəsiz yaşamaq kimi adi hüququndan danışmaq belə mümkün deyildi. Cəmiyyətin fəal zümrəsi olan gənclərin müxtəlif vasitələrlə bu siyasi oyunlara, qanunsuz silahlı qruplaşmalara cəlb edilməsi, məkrli tədbirlərin həyata keçirilməsində "siyasi alət" kimi istifadə olunması meyilləri, xüsusən, narahatlıq doğururdu. Faktiki olaraq, müxtəlif silahlı qruplara bölünən, parçalanan Azərbaycan gəncliyinin enerjisindən o illərdə dövlət və dövlətçiliklə bağlı praktiki məqsədlər üçün deyil, konyunktur maraqlar naminə istifadə edilirdi. Ayrı-ayrı siyasi partiyaların qanunsuz silahlı birləşmələrə malik olmaqla, dövlətin o zamankı rəhbərliyinə tabe olmaması nəticəsində, hakimiyyət böhranının dərinləşməsi ölkənin cənubunda və şimalında separatçıların məkrli niyyətlərini həyata keçirmələri üçün münbit şərait yaranmışdı. Şimalda "Sadval" hərəkatı açıq fəaliyyətə başlamış, cənubda isə qondarma "Talış-Muğan Respublikası" yaradılmaqla, Azərbaycanın bütün cənub bölgəsinin, faktiki olaraq, respublika ilə əlaqəsi kəsilmişdi. Qondarma "sərhəd" yaradılmış, qondarma "dövlətin" hakimiyyət orqanları belə yaradılaraq, onun strukturlarına vəzifəli şəxslər təyin edilmişdi. Azərbaycanda xaos və anarxiya hökm sürürdü. İqtisadiyyat dağıdılmış, insanların yaşayış səviyyəsi kəskin şəkildə aşağı düşmüş, cinayətkarlığın səviyyəsi maksimum həddə çatmışdı. Qarabağda döyüşmək üçün ağır və xüsusilə, ağır cinayət törətmiş şəxslər belə, həbsdən azad edilərək silahlandırılmışdı. 1993-cü ilin iyun ayının əvvəllərində Gəncə şəhərində xalqın dəstəyindən tamamilə məhrum olmuş mərkəzi hakimiyyətə qarşı baş qaldırmış hərbi qiyam isə ölkədəki hərc-mərcliyin, anarxiya mühitinin, siyasi hakimiyyətə qarşı total inamsızlığın kulminasiya həddinə yetişməsi idi. Faktiki olaraq, bəzi xarici qüvvələrin də dəstəklədiyi bu silahlı qiyam Azərbaycanın yenicə nail olduğu dövlət müstəqilliyinə ciddi təhlükə olmaqla yanaşı, silahlı vətəndaş müharibəsinə, Azərbaycanın ayrı-ayrı bölgələrə parçalanmasına zəmin yaratmışdı. Azərbaycan, faktiki olaraq, dövlət müstəqilliyini itirmək ərəfəsində, xalq isə vətəndaş müharibəsinin astanasında idi. Belə bir mürəkkəb şəraitdə xalqın səsinə səs verərək, hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev respublikanı milli müstəqilliyin itirilməsi təhlükəsindən qurtarmış, çağdaş tariximizə dövlətçiliyin xilaskarı və qurucusu kimi daxil oldu. Böyük strateqin rəhbərliyi altında hakimiyyət boşluğu qısa müddətdə aradan qaldırıldı, respublikanın müxtəlif bölgələrində dövlətçiliyə qəsdlər təşkil edən cinayətkar ünsürlər xalqın dəstəyi ilə zərərsizləşdirildi, vətəndaş sülhü və həmrəyliyinin təmini istiqamətində ciddi addımlar atıldı. Ulu Öndərin bu mərhələdə Azərbaycan üçün ən böyük xidməti isə onun de-fakto müstəqil dövlət qurması, dövlətçilik sütunlarını möhkəmləndirməsi, tarixi ənənə və müasirlik əsasında milli inkişaf konsepsiyasını müəyyənləşdirməsi oldu. Bütün bunlar Azərbaycanda ardıcıl və sistemli olaraq hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması prosesinə başlamaq imkanı yaratdı. Ölkədə ictimai-siyasi sabitliyin tam bərqərar olması, hüquq qaydalarının möhkəmləndirilməsi, dövlət çevrilişləri cəhdlərinin qarşısının xalqın dəstəyi ilə qətiyyətlə alınması Heydər Əliyevə dövlət quruculuğu istiqamətində praktik addımlar atmağa imkan verdi. O, xalqımıza qazandırdığı milli siyasi müstəqilliyin daha da möhkəmləndirilməsi üçün, ilk növbədə, Azərbaycanın iqtisadi müstəqilliyinin təmin olunmasının mahiyyətini dərindən dərk edirdi. Heydər Əliyev neft sektoruna xarici sərmayələrin cəlb edilməsi istiqamətində ciddi addımların atılmasını təmin etmiş, 1994-cü ilin 20 sentyabrında "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmuşdur. Xəzər hövzəsində beynəlxalq əməkdaşlığın əsasını qoymuş bu müqavilənin imzalanması ilə respublikamızın gələcək inkişafının fundamental bünövrəsi qoyulmuşdur. "Əsrin müqaviləsi"nin imzalanması ilə Qərb şirkətlərinin Xəzər hövzəsinə külli miqdarda investisiya yatırması Azərbaycana ən müasir innovasiya və informasiya texnologiyalarını gətirməklə yanaşı, demokratik proseslərin, hüquqi-siyasi islahatların sürətlənməsinə, vətəndaş cəmiyyətinin formalaşmasına, habelə, Avropanın nüfuzlu beynəlxalq təşkilatları ilə əməkdaşlıq xəttinin gücləndirilməsinə ciddi təkan verdi.

1995-ci ilin mart ayında o böyük qəlbli dahi insanın gənclərlə yaddaşlarda daim qalacaq ilk görüşü oldu. Bu görüşdə Ümummilli Lider hər zaman Azərbaycan gənclərinin yanında olacağını, onların dəyərli vətəndaş kimi yetişmələri üçün əlindən gələni əsirgəməyəcəyini bildirdi. 1996-cı ilin fevral ayının 2-də Ümummilli Liderin təşəbbüsü ilə Azərbaycan Gənclərinin ilk Forumu keçirildi. Forumda Azərbaycanda həyata keçirilməsi nəzərdə tutulan genişmiqyaslı gənclər siyasətinin dəqiq konturlarının müəyyənləşdirilməsi gənclərdə sabaha böyük ümidlər yaratdı və hər bir gənc Heydər Əliyevin simasında etibarlı himayədarının olduğunu dərk etdi. Belə ki, Azərbaycanın müxtəlif bölgələrindən olan 2 minədək gəncin iştirakı ilə keçirilən forumda, hər şeydən öncə, Vətənini sevən, milli dəyərləri və dövlətçilik prinsiplərini hər şeydən uca tutan, yüksək bilik və bacarıqlara malik gənc nəslin yetişdirilməsi ilə bağlı ayrı-ayrı dövlət orqanlarının üzərlərinə düşən vəzifələr və məsuliyyət müəyyənləşdirildi. 1997-ci ildə Ulu Öndər fevralın 2-nin Azərbaycan Gəncləri Günü elan edilməsi ilə bağlı Fərman imzaladı. Bununla da, Azərbaycanda uğurlu gənclər siyasətinin əsası qoyuldu. Bu gün Azərbaycan özünün hər bir sahədə dinamik və titanik inkişaf dövrünü yaşayır. Çünki ölkə Prezidenti İlham Əliyev Ulu Öndər Heydər Əliyev siyasi kursunu uğurla davam etdirir. Əsrlər keçəcək, illər birbirini əvəz edəcək, nəsillər dəyişəcək, amma Ulu Öndər Heydər Əliyevin milli müstəqillik, azərbaycançılıq ideyaları heç zaman yox olmayacaq. Nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var Heydər Əliyev ürəklərdə yaşayacaqdır.Onun "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam" sözləri artıq hər bir azərbaycanlının milli mənlik şüurunun zirvəsinə çevrilib.

# Putin Qərbi demokratiya zopası ilə döyür

## *Rəngli inqilablar seriyası Azərbaycanda dayandırıldı*

### “Ərəb baharı”nın solğun çiçəkləri

Milyonlarla, milyardlarla, böyük məbləğlərlə vəsaitlər xərcləyərək, müəyyən ölkələrdə inqilablar vasitəsilə dövlət çevrilişləri həyata keçirən Qərb dairələri və bu kimi bəzi ümumiləşmiş məsələlərdə onların təmsilçisi sifətində çıxış edən Amerika Birləşmiş Ştatları əvvəlcə bu prosesi çox böyük həvəslə elə sürətləndirdilər ki, sanki bu inqilabi dövlət çevrilişlərindən sonrakı BƏS SONRA? və yaxud SONRA NECƏ OLACAQ? suallarının cavabı tam hazırlanmamış prosesi başlatmışdılar.

Ən pis, ən yarıtmaz vəziyyətdə olan yarımçıq, bişməmiş məsələ də elə bu idi ki, çevrilişdən sonrakı proseslərin sanki tam nəzərə alınmadığı ortaya çıxırdı. Bu məsələlərdə sonradan “Ərəb baharı”nın çiçəklənməsinin əsasən, ABŞ mənbələrindən qaynaqlandığını Soros Fondunun etiraf etdiyini nəzərə alsaq, çevrilişlərin ideoloji, texniki və siyasi müəllifi olan ABŞ-dakı kovboyların ya gözləməyə hövsələsi çatmamış, tələsmişdilər, ya da “Putin KQB”si prosesi yetişməyə qoymamış, görünür hadisələrin tələsik başlanmasına rəvac verən müəyyən hərəkətlər olmuşdur ki, necə deyərlər Ərəb çiçəkləri kal dərilmişdi. Yaxud da “Ərəb baharı” inqilabi çevrilişlərinin ideya-texnoloji və maddi sponsorları və ABŞ-ın funksional institutları bu dövlətlərdə inqilabi çevrilişlərin yerində qurulmalı olan idarə üsulunu müəyyən kənar təsirlərin nəticəsində axıra qədər qurub çatdıra bilməmiş, ya da sadəcə olaraq bu böyük region bilərəkdən dağıdılmış, ərəblərə və Afrika xalqlarına qarşı düşünülmüş plan həyata keçirildiyini də iddia etmək olar. Əslində, “demokratiya” adı ilə və böyük maddi vəsaitlər xərcləyərək milyonlarla insanın müharibələr, aclıq və səfalət, idarəsizlik, xəstəlik və epidemiyalar yolu ilə məhv edilməsi, abad şəhərlərin dağıdılıb viran qoyulması planı həyata keçirilmişdir. Bunu heç kim belə açıq formada demək istəmir ki, bəlkə bu “Ərəb baharı” adlanan ssenari elə 2010-cu ilin baharına kimi ərəblərin və Afrika xalqlarının məhv edilməsi və ölkələrin, şəhərlərin dağıdılması planının “kod adı” idi.

Hər halda prosesin xronologiyasına və nəticələrə diqqət etsək, layihənin çiy, yetişməmiş başladığını deməyə indi daha çox əsas var.

18 dekabr 2010-cu il Tunis
28 dekabr 2010-cu il Əlcəzair
12 yanvar 2011-ci il Livan
14 yanvar 2011-ci il İordaniya
17 yanvar 2011-ci il Sudan
17 yanvar 2011-ci il Oman
17 yanvar 2011-ci il Mavritaniya
18 yanvar 2011-ci il Yəmən
21 yanvar 2011-ci il Səudiyyə Ərəbistan
25 yanvar 2011-ci il Misir
26 yanvar 2011-ci il Suriya
28 yanvar 2011-ci il Cibuti
30 yanvar 2011-ci il Mərakeş
10 fevral 2011-ci il İraq
14 fevral 2011-ci il Bəhreyn
17 fevral 2011-ci il Liviya




18 fevral 2011-ci il Küveyt

Əlbəttə, kütləvi inqilabi etiraz, iğtişaş və döyüşlərlə müşayiət olunan hadisələrin, yaxud prosesin tarixinə, coğrafiyasına nəzər salsaq, görürük ki, 18 dekabr 2010-cu il - 18 fevral 2011-ci il tarixində, cəmi iki ay ərzində bir regionun 17-dən artıq dövlətində inqilabi proses başlamış və bir çoxunda da hakimiyyət dəyişikliyi ilə nəticələnmişdir. Eyni gündə üç dövlətdə, yaxud altı gün ərzində 2-3 gün fərqi ilə altı dövlətdə eyni proses, inqilabi çevriliş üçün böyük etiraz dalğası başlayırsa, deməli ciddi, koordinasiyalı təşkilatçılığın mövcudluğundan xəbər verir. Söz yox ki, bir etiraz aksiyasını hazırlamaq üçün əvvəlcədən xeyli zaman və vəsaitin sərfiyyatına ehtiyac var, o da ola bir gündə üç dövlət. Amerika Birləşmiş Ştatları kimi supergüc və ən yüksək texniki təhcizatla təmin olunmuş kəşfiyyat sistemi sözsüz ki, başlanılan prosesin nəzarətdən çıxmasına imkan verə bilməzdi. Lakin “Ərəb baharı” adlandırılmış inqilab ssenarisində domino effekti alındı, proseslər bəzi hallarda kənara çıxmalarla müşahidə edildi, hadisələr çox sürətlə cərəyan elədi. Buna baxmayaraq, proseslər idarə olunurdu və nəzarətdən çıxanlar, ciddi müqavimət göstərməyə cəhd edənlər isə Liviyanın dövlət başçısı Müəmmar Qəddafinin nümunəsində sonu bəlli olan cəzaya məhkum olundu. Qəddafinin güllələnərək, nəşinin günlərcə öz xalqının



ayaqları altında “tapdalandırılması” isə həm gələcəkdə onun şəxsiyyəti və ideyası ətrafında insanlar birləşərək mübarizəyə qalxmasınlar deyə alçaldılması məqsədi daşıyırdı, ikincisi, ondan da vacibi isə Qərbin layihələrinə qarşı çıxanların aqibətinin oxşar olacağı xəbərdarlığı və hədələmək nümunəsi idi.

Bu inqilabi prosesin başlamasını, inkişaf troyektoriyasını və həyata keçməsini layihələndirən siyasi-ideya müəllifləri və artıq heç kəsə sirr deyil ki, maddi sponsoru Soros Fondu sonrakı idarəçilik formasını axıra qədər planlaşdırıb idarə edə bilmədilər, yaxud belə lazım idi. 2009-2010-cu illərin statistikasına görə Misir, Suriya, Livan, Yəmən və s. süni inqilablar baş vermiş Ərəb ölkələri həm gözəlliyi, inkişafı və turizm baxımından dünyada çox sürətlə inkişaf etməkdə olan ölkələr sırasında idilər. Bu neft ölkələrinin həmin dövrdə sürətli mədəni və iqtisadi inkişafı təbii idi.

İndi isə baş verən inqilablardan sonrakı keçən 15 ildən çox müddət ərzində nəinki inkişaf etmiş, sanki ən azı 20 il geriyə qayıtmış və hələ də Suriya, Liviya, Yəmən və s. kimi qədim tarixə malik olan ölkələrin gözəl, müasir tikililərinin xarabalıqları arasında atəş və ölüm, yaxud da ac-yalavac insanların, qadın və uşaqların ağlaşma və hıçqırıq səsləri eşidilir.

Yeri gəlmişkən bu inqilabların ilhamverici Corc Soros bizdən inciməsin, görəsən, digər şeytan düşüncəli və hiyləgər adamlar bu inqilabların “bəxş etdiyi” dağıntılara, günahsız uşaq, qadın, ahıl insanların acından və müharibənin digər fəsadlarından ölümünə görə Allah qarşısında öz günahlarını hiss edirlərmi?

### Rəngli inqilab seriyası Azərbaycanda dayandırıldı

ABŞ-ın dəstəklədiyi hakimiyyət dəyişikliyinin - inqilabi dövlət çevrilişinin Gürcüstan variantı 2003-cü ildə baş tutan “Qızılgül inqilabı”dır. Gürcüstan ssenarisində bir qadın iki kişi lider olmaqla Mixail Saakşvili, parlament başçısı Nino Burcanadze və köhnə parlament başçısı olmuş Zurab Jıvaniyanın birlikdə hərəkəti ilə 23 noyabr 2003-cü il tarixdə ölkə başçısı Eduard Şevardnadzeni hakimiyyətdən istefa verməyə məcbur etdilər və 2004-cü ilin yanvar ayında dövlət başçısı seçkiləri keçirilərək, Mixail Saakaşvili prezident seçildi.

### “Maydan” inqilabı

*Ermənistanda “Məxməri inqilab”*

2004-cü il noyabr ayının 22-də prezident

# Putin Qərbi demokratiya zopası ilə döyür

## Rəngli inqilablar seriyası Azərbaycanda dayandırıldı

seçkilərinin nəticələrinə etiraz olaraq, Kiyevin mərkəzi meydanından başlayan kütləvi etiraz aksiyası - "Maydan hərəkatı" - 2005-ci il yanvar ayının 23-də Viktor Yuşşenkonun təkrar seçkilərdə qalib gələrək, prezident seçilməsi "Narıncı inqilab"ın qələbəsi ilə nəticələndi. Ukrayna "Narıncı inqilabı"nın da Gürcüstan inqilabı ilə oxşar və eləqəli cəhətləri sonralar tam aydınlığı ilə ortaya çıxdı və bu inqilabın da liderləri siyasi lider - Viktor Yuşşenko, gözəl hörüyü olan xanım lider Yuliya Tumoşenko və inqilaba mənəvi-ruhi dəstək verən dünyaca məhşur boksçu Vitali Kliçko idilər.

2005-ci ilin aprel ayında Qırğızıstanda "Zanbaq inqilabı", 2009-cu ilin aprel ayında Moldovoda "Üzüm inqilabı", 2018-ci il 12 apreldən Ermənistanda başlayan Nikol Paşinyanın rəhbərlik etdiyi etiraz aksiyaları nəticəsində "Məxməri inqilab" qalib gələrək, may ayının 08-də hakimiyyət dəyişikliyi rəsmiləşdi.

Bizim tədqiqat mövzumuz bu hadisələrin ayrılıqda üzərində dayanmaq olmadığı üçün bu prosesə başqa prizmadan yanaşaraq və bu proseslərin Azərbaycanla nə dərəcədə əlaqəsi var sualına baxacağıq.

Rəngli inqilablar seriyasına biz dünya coğrafiyasında deyil, yalnız Azərbaycana aidiyyəti olan siyasi məkan və coğrafi müstəvidə baxmağa çalışaraq, həm "Ərəb baharı", həm rəngli inqilablarda ABŞ-ın supergüc olaraq, rolu və təsirini qeyd etdik. Lakin Rusiyanı bu proseslərdə müşahidəçi hesab etmək düzgün də deyil, mümkün də deyil.










### Bəs Rusiya nə edir?

Bugünkü Rusiya Putindir - Vladimir Putin! Və əksinə Putin də - Rusiyadır.

Mixail Qorbaçovun dağıtdığı və Boris Yeltsinin itirdiyi coğrafi-siyasi itkilərdən sonra Putin Rusiyanı toparlamağa çalışan "KQB" təmsilçisidir. Hansı ki, siyasi hakimiyyətin əməliyyatçısı olan "KQB", siyasi iradəni də, əməliyyatı da özü ifadə etmək məcburiyyətində qaldıqdan sonra Putin itirilmiş mövqelər uğrunda mübarizə aparsa da, hətta bəzən epizodik döyüşlər baş versə də itirilənlərin bərpası heç də asan görünmür.

Putin ən son müasir texnika və texnologiyalarla Qərbin demokratiya silahı ilə, Qərbin öz başına zərbələr vurur. Rusiyanın ABŞ-da keçirilən Prezident seçkilərinə müdaxiləsi barədə hələ də ABŞ siyasi dairələri danışırlarsa, bu super dövlət olan ABŞ üçün çox utancvericidir. Bu yöndən Rusiyanın revanşı da diqqət çəkicidir.

Əvvəla qeyd etmək yerinə düşər ki, həm Ukraynada, həm Gürcüstanda Qərb, NATO bu ölkələrin arxasında axıra kimi dura bilmədi və həm Ukrayna, həm Gürcüstanın NATO-ya qəbulu prosesinə Rusiya ciddi əngəl törədərək, hər iki ölkənin ərazilərində yaranmış separatçı "muxtar" qurumları tanımaqla bu problemləri biraz daha dərinləşdirdi. Sonra isə Putinin revanşı bu ölkələrin seçkilərində rusiyapərəst və ya qatı qərbpərəstlərə əks qüvvələrin hakimiyyətə gəlməsi ilə nəticələndi.

Gürcüstanda 2012-ci ilin oktyabr ayında Bidzina İvanişvili seçkilərdə qələbə qazanaraq, hakimiyyətə gəldi və Gürcüstan siyasətində anti-Saakaşvili xəttinin qalibiyyətinin təminatçısına çevrildi. Moldovada 23 dekabr 2016-cı ildə İqor Dodon prezident seçkilərində qalib gəldi və rusiyapərəst mövqe nümayiş etdirməkdən çəkinmədi.

Ukraynada 2018-ci ilin aprel ayında prezident seçkilərində də aktyor-Vladimir Zelinski qalib gələrək bəzi rusiyayönlü bəyanatlarla çıxış etsə də yenə də reallığı nəzərə almalı olacaq və bu da Gürcüstan ssenarisinin Ukrayna variantıdır. Bu seçkilərdəki təsir imkanları ilə Putin Qərbin demokratiya zopası ilə ABŞ və Avtopanı döyməyə başlayıb və eyni zamanda xüsusilə keçmiş SSRİ məkanında keçən mərkəzdənqaçma prosesindən sonrakı dövrdə "KQB" şəbəkəsi öz eləqələrini aktivləşdirmək imkanı qazanmışdır. Yeri gəlmişkən, geopolitik münasibətlərdə və xarici siyasətdə həmişə ustalıqla irəliləyən Azərbaycan iqtidarı sözsüz ki, keçmiş SSRİ məkanını Rusiyanın (KQB) daha yaxşı "tanıması" faktorunu nəzərə aldığı kimi prezident İlham Əliyev də Kremli yaxşı tanıyan azsaylı siyasi liderlərdəndir.

İndi isə Azərbaycan və rəngli inqilablara münasibət mövzusuna qısa nəzər salaq.

Əvvəla qeyd etmək yerinə düşər ki, 2005-ci ildə o dövr üçün silsilə rəngli inqilablar seriyası məhz Azərbaycanda "ilişdi". Boynuna narıncı şərf asaraq, əslində boğazına keçən narıncı "şərf"i daşıyan özlərini demokrat adlandıran müxalifət 2005-ci ilin oktyabr ayında digər respublikalarda sınaqdan çıxmış metodla hərəkət etdilər. Sadəcə olaraq, Ulu Öndər Heydər Əliyevin möhkəmlətdiyi dövlət Gürcüstandan fərqli olaraq laxlamadı. Əslində regionda və dünyada baş verən bu dəyişikliklər, supergüclərin iqtisadi-siyasi liderlik, geopolitik nüfuz və ambisiya savaşında istifadə olunan xalqlar və dövlət çevrilişləri, müharibələr sözsüz ki, bu rəqabətin poliqonuna çevrilən ölkələrə xoşbəxtlik gətirə bilmir, əksinə, onilliklərlə geri salır. Azərbaycanın bu keçən müddətdə beynəlxalq, regional və yerli iri və meqa layihələr həyata keçirən və təşəbbüskar bir ölkə kimi stabil inkişafını şərtləndirən əsas səbəblərdən biri SABİTLİKDİR. Ölkə başçısı İlham Əliyevin çevik və balanslı xarici siyasəti Azərbaycanı bu kataklizmlərdən yan ötməyə imkan yaradır. Yeri gəlmişkən, bu məna-da regionda sabit və stabil inkişaf edən, dövlət və hakimiyyətin formalaşmasına və inkişafı istiqamətində mütəmadi islahatlar həyata keçirən Moskva və Qərblə, beynəlxalq və regional oyunçularla normal, inkişaf edən və balanslı münasibət qurmağı bacaran haliyyədə iki dövləti nümunə göstərməyə çalışsaq, bunun biri Azərbaycan, digəri Qazaxıstan ola bilər.

Bu kontekstdən son günlərin hadisələri özünü Venesuelada bariz şəkildə göstərməkdədir. Amma orada Suriya ssenarisindən fərqli olaraq, müxtəlif silahlı etnik və terrorçu qruplar mövcud deyil və bu ölkənin ərazisində iki qüvvə, bir tərəfdə Amerika Birləşmiş Ştatları, digər tərəfdə isə Putin Rusiyası üz-üzə dayanıblar.

***"Region" Analitik İnformasiya Mərkəzi "Səs" qəzetinin sifarişi ilə hazırlanıb***

# Səhiyyə sahəsində aparılan islahatlar insanların sağlamlığına xidmət edir



**_Azərbaycanda səhiyyə sistemində aparılan uğurlu islahatlar nəticəsində tibb müəssisələrinin maddi texniki bazası və kadr potensialı gücləndirilib, bütövlükdə səhiyyə sahəsində böyük nailiyyətlər əldə edilib. Müxtəlif səhiyyə müəssisələrinin, o cümlədən xəstəxanaların, müalicə-diaqnostika, reabilitasiya mərkəzlərinin, poliklinikaların inşası həyata keçirilib, səhiyyə ocaqları əsaslı təmir olunub və lazımi avadanlıqla təmin edilib. Azərbaycanda səhiyyənin inkişafı istər yeni tibb ocaqlarının inşasında, istər mövcud xəstəxana və tibb mərkəzlərinin bərpasında, istərsə də tibb müəssisələrinin ən müasir avadanlıqla təchiz edilməsində özünü daha qabarıq biruzu verir. Bütün bunlar sübut edir ki, Azərbaycan vətəndaşlarının hərtərəfli tibbi xidmətlə təmin edilməsi istiqamətində icra olunan layihələri dövlətimizin başçısı daim nəzarətdə saxlayır. Bu layihələr, eyni zamanda, vətəndaşlarımızın məhz ölkəmizdə yüksək səviyyəli tibbi xidmətlərdən yararlanması ilə bağlı görülən mühüm işlərin davamlı olduğunu göstərir._**

Səhiyyə sahəsində aparılan islahatların davamı olaraq icbari tibbi sığortanın tətbiqi hökumətin səhiyyə sahəsində apardığı islahatların tərkib hissəsidir. İcbari tibbi sığortaya keçid ölkə vətəndaşlarının tibbi xidmətlərə əlçatanlığını artırır. İcbari tibbi sığorta müasir və keyfiyyətli tibbi xidməti təmin edən səhiyyənin maliyyələşdirilməsinin yeni formasıdır. Bu sistemin, sonradan genişləndirilə biləcək baza zərfi çərçivəsində həyata keçirilməsi nəzərdə tutulur.

2017-ci ilin yanvarından etibarən ölkəmizdə icbari tibbi sığortanın pilot layihə şəklində həyata keçirilməsinə başlanmışdır. Pilot layihə ilk olaraq Mingəçevir şəhəri və Yevlax rayonunun ərazilərini əhatə etmiş, 2018-ci ildən etibarən isə Ağdaş rayonunun ərazisində də tətbiq edilmişdir. Əhalisi 340 min nəfər təşkil edən pilot ərazilərdə sığorta olunanlar və 30 minə yaxın məcburi köçkün baza zərfi çərçivəsində ödənişsiz tibbi xidmətlərlə təmin edilmiş və əhalinin səhiyyə xərcləri ilə bağlı maliyyə yükü əhəmiyyətli dərəcədə azaldılmışdır.

Qeyd edək ki, icbari tibbi sığortanın baza zərfinə 18 növ ilkin səhiyyə xidməti, 6 növ təcili və təxirəsalınmaz yardım xidməti, 480 növ ambulator, 677 stasionar, 459 laborator, 166 növ həyati vacib, dəyəri yüksək olan xidmətlər daxil edilir. Bu zaman təcili və təxirəsalınmaz tibbi xidmət bütün əhali üçün pulsuz olmaqla, sığorta tələb edilmədən dövlət tərəfindən təklif ediləcək. Baza zərfinə daxil edilən həyati vacib, dəyəri yüksək tibbi xidmətlər müəyyənləşdirilərkən ölüm səbəbləri arasında öndə gedən xəstəliklər nəzərə alınıb. Belə ki, qapalı və açıq ürək əməliyyatları, o cümlədən stend qoyulması, damar əməliyyatları sığorta paketinə daxil edilib, çünki ürək-damar xəstəlikləri ölüm səbəbləri arasında yüksək yer tutur.

Pilot ərazilərdə adambaşına düşən səhiyyə xərci kapital qoyuluşlar nəzərə alınmaqla 114 manat, böyük kapital qoyuluşlar nəzərə alınmamaqla 93 manat civarında təşkil edir. Ödənişsiz tibbi xidmətlərlə təmin edilmiş əhalinin səhiyyə xərcləri ilə bağlı maliyyə yükü xeyli azaldılıb və baza zərfi çərçivəsində əhali tərəfindən birbaşa çəkilən xərclər 100 faiz həcmində aradan qaldırılıb.

Sığorta növünün tətbiqinin yalnız səhiyyə deyil, eyni zamanda digər sektorlara o cümlədən əhalinin xərclərinin strukturuna da müsbət təsirləri var. İcbari sığortanın tətbiq edilməsi səhiyyənin maliyyələşdirmə bazasını dəyişməklə bu sahədəki neqativ halların azaldılmasına səbəb olacaq. Bu, vətəndaşların səhiyyə xərclərinin azalması səbəbindən pulların qənaət etməsinə və o cümlədən az təminatlı və ya işsiz statusu olan insanların səhiyyə xidmətindən yararlanmasına imkan yaradacaq.

İcbari tibbi sığorta xəstəliklərin erkən mərhələdə aşkar edilməsində, daha ağır mərhələyə keçidinin qarşısının alınmasında, ən ucqar kəndlərdə belə yaşayan əhalinin keyfiyyətli tibbi xidmətlərlə təmin olunmasında əhəmiyyətli rol oynayır.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Prezident Administrasiyasının rəsmisi: **İki ildə cəza siyasətinin humanistləşdirilməsi tədbirləri 14 minə yaxın şəxsə tətbiq olunub**



Prezident İlham Əliyevin məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi ilə bağlı Fərmanı əsasında həyata keçirilən yeniliklərin sahibkarlar və biznes nümayəndələri ilə birgə müzakirəsi mühüm əhəmiyyətə malikdir. AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər şöbəsinin sektor müdiri Vüsal İsayev "Azərbaycanda məhkəmə hüquq-islahatları: Azərbaycan Amerika Ticarət Palatası ilə ictimai müzakirələr" mövzusunda konfransda bildirib.

Prezident Administrasiyasının rəsmisi deyib ki, hazırda ölkədə Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə mühüm islahatlar həyata keçirilir. O, dövlət başçısının məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi ilə bağlı Fərmanının məqsədinin bu sahədə müsbət dəyişiklikləri daha da sürətləndirmək, onun inkişafına yeni impuls vermək, ədalət mühakiməsi mexanizmlərini təkmilləşdirmək, sahibkarların hüquqlarını daha səmərəli müdafiə etmək olduğunu söyləyib. Vüsal İsayev bu Fərmanla məhkəmə-hüquq sistemində yeni mərhələnin başlandığını və bunun yeni islahatlar dalğasını yaradacağını deyib.

Vüsal İsayev islahatların əsas istiqamətlərinin birinin də cəza siyasətinin humanistləşdirilməsi olduğunu diqqətə çatdırıb. O bildirib ki, Prezident İlham Əliyevin bununla bağlı 2017-ci ildə imzaladığı Fərmanın icrası nəticəsində Cinayət Məcəlləsinə 300-ə yaxın dəyişiklik olunub. Humanistləşdirmə tədbirləri 14 minə yaxın şəxsə tətbiq olunub. Doqquz minə yaxın şəxs istintaq və məhkəmə mərhələsində məsuliyyətdən azad olunub. 1800 şəxs cəzadan azad edilib , onların da 800 nəfərində azadlıqdan məhrumetmə cəzası olub.

## Gündüz Kərimov: **Məhkəmə-hüquq sistemində islahatlarla bağlı Fərman strateji sənəddir**



Prezident İlham Əliyevin məhkəmə-hüquq sistemində islahatlarla bağlı imzaladığı Fərman bu sahədə mühüm dəyişikliklərin həyata keçirilməsini nəzərdə tutur. Bu səbəbdən həm cəmiyyət, həm də biznes ictimaiyyətinin bu islahatların müzakirəsində iştirakı əhəmiyyətlidir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Bakıda keçirilən "Azərbaycanda məhkəmə hüquq-islahatları: Azərbaycanda Amerika Ticarət Palatası ilə ictimai müzakirələr" konfransında Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi Gündüz Kərimov deyib. O qeyd edib ki, hazırkı tədbir və bu qəbildən olan digər silsilə tədbirlər Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və tapşırığı ilə bütün ölkə üçün əhəmiyyət kəsb edən məhkəmə-hüquq islahatlarının keçirilməsinə ictimaiyyətin cəlb edilməsi məqsədini daşıyır.

Hüquq və iqtisadiyyatın qarşılıqlı əlaqədə fəaliyyət göstərən iki məfhum olduğunu deyən Gündüz Kərimov idarəetmənin və tənzimləmənin təkmilləşdirilməsinin Azərbaycanda iqtisadi inkişafa təkan verdiyini, ölkəmizin iqtisadi müstəqilliyinin, iqtisadi-sosial gücünün möhkəmlənməsində öz rolunu oynadığını qeyd edib. Birinci vitse-prezidentin köməkçisi bildirib ki, Prezidentin Fərmanı ilə dövlət orqanlarına və təşkilatlarına məhkəmə-hüquq sisteminin müxtəlif sahələri üzrə tapşırıq və tövsiyələr verilib. "Fərmanda göstərilmiş müddətlərdə bu orqan və qurumlar həmin tapşırıqların icrası məqsədilə müxtəlif qanun, fərman və digər normativ hüquqi aktların layihələrini hazırlayıb Prezident Administrasiyasına təqdim etməlidirlər. Bu konfransın keçirilməsinin əsas məqsədlərindən biri də bu qurumlar tərəfindən təqdim ediləcək layihələrə baxılarkən biznes və hüquq ictimaiyyətinin islahatlara aid əsaslandırılmış, rasional və obyektiv təkliflərinin nəzərə alınmasının təmin edilməsidir", - deyə o vurğulayıb. Gündüz Kərimov bildirib ki, Fərman məhkəməyə müraciət hüququndan başlayaraq məhkəmə qərarlarının icrasının səmərəliliyinə qədər bütün məsələləri əhatə edir. Ona görə də bu sənəd strateji sənəd hesab oluna bilər.

# "Prezidentin hədəfi əhalinin rifahının təminatıdır"

**_"Prezident İlham Əliyevin ölkə əhalisinin sosial rifahının yüksəldilməsinə dair həyata keçirdiyi işlərin miqyası gündən-günə genişlənir. Dövlət başçısının sosial islahatlar paketi çərçivəsində fərmanlar və sərəncamlar imzalaması prosesi davam edir._**



Prezident İlham Əliyevin I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqı xərclərinin ödənilməsi haqqında Sərəncam imzalaması bu baxımdan istisna təşkil etmir". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Kamilə Əliyeva deyib.

Deputat bildirib ki, imzalanmış Sərəncama əsasən, Azərbaycan Respublikasının ali təhsil müəssisələrində bakalavr və magistratura təhsil səviyyələrində, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil müddəti ərzində təhsil haqqı xərcləri 2019/2020-ci tədris ilindən etibarən dövlət büdcəsinin vəsaiti hesabına ödəniləcək.

K.Əliyeva söyləyib ki, son bir ildə sosial sahədə atılan mütərəqqi addımlar Azərbaycan vətəndaşının maraqlarının dövlətin həyata keçirdiyi siyasətin mərkəzində dayandığını bir daha təsdiqləyir: "Bütün atılan addımlar Prezident İlham Əliyevin güclü sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir və ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Təsadüfi deyil ki, seçkilərdə qələbə qazandıqdan sonra Prezident İlham Əliyevin imzaladığı ilk Fərman şəhid vərəsələrinə birdəfəlik ödəmənin verilməsi ilə bağlı olub. Dövlətimizin başçısının ölkənin sosial həyatında inqilabi addımların davamlı xarakter aldığını göstərən qərarları ilə ötən bir il ərzində minimum pensiya məbləği, minimum əməkhaqqı orta hesabla 40 faiz artırıldı. Cənab İlham Əliyevin 2019-cu il 25 fevral tarixli Sərəncamı ilə isə 600 minədək şəxsə, o cümlədən 300 min əlilliyi olan şəxsə yönələn sosial müavinətlər, təqaüdlər orta hesabla 100 faiz artırıldı, əlavə olaraq bir sıra kateqoriyalardan olanlar üçün Prezidentin aylıq təqaüdləri təsis olundu".

***Nailə Məhərrəmova***

# Ermənistan 2019-cu ildə: köhnə və yeni problemlər

*Paşinyan çıxış yolu tapa bilmir*

***Ermənistan xalqı hələ də müstəqilliyin nə demək olduğunu dadmayıb. Çünki 21 sentyabr 1991-ci ildə müstəqilliyini elan etdikdən sonra, bu ölkədə hakimiyyət dəyişikliyi ilə nəticələnən və ictimai-siyasi həyatı kökündən dəyişdirən iki hadisə yaşanmışdır.***

Bu hadisələrdən birincisi Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyanın Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı probleminin (Dağlıq Qarabağ probleminin) həll edilməsi üçün göstərdiyi təşəbbüsün öz yaxın ətrafı tərəfindən belə qəbul edilməməsi səbəbilə istefa etməsi və Robert Koçaryanın hakimiyyətə gəlməsi; ikincisi isə Serj Sarkisyanın 10 il hakimiyyət kürsüsündə oturmasına baxmayaraq, baş nazir postuna sahib olduqdan sonra xalqın etiraz dalğası qarşısında müqavimət göstərməyərək, baş nazir postundan istefa verməsi və Nikol Paşinyanın hakimiyyətə gəlməsidir. Və bu gəlişlə "küçə demokratı" Nikol Sarkisyanın yolunu davam etdirməkdədir.

## "Arxalı köpək qurd basar"

Beləliklə, elə həmin gündən Ermənistan sosial problemlərin məngənəsində boğulmaqdan xilas olmaq üçün yenidər ölkədə etiraz aksiyaları başladı və bu gün bu problemlər birə-on qat artıb. Əgər Sarkisyanın istefa ərəfəsi günlərini xatırlasaq, görərik ki, eyni ilə həmin hadisələr Nikol Paşinyan hakimiyyətində də baş verməkdədir. Əgər oturaq aksiya keçirən insanlar "Talana, yalana son qoy, Sarkisyan!" şüarı ilə çıxış edirdilərsə, indi də Paşinyana "küçə demokratı, yalan vədlərə son qoy!" şüarını səsləndirirlər. Hətta küçə alverinə imkan verməyən Paşinyana 80 yaşlı qadın "Dağılsın bu dövlət!", "Rədd olsun bu hakimiyyət" şüarları ilə çıxış etməsi deyilənləri təsdiqləyən faktlardır. Etirazçılar bildirirlər ki, uzun zamandan bəri Ermənistanda davam edən aclıq, səfalət və insanlara qarşı təzyiq bu gün Nikolun hakimiyyəti dövründə son həddə çatıb.

Erməni mətbuatının yazdığına görə, ölkədə yaranmış ağır durumla bağlı erməni ekspertləri bildirirlər ki, hər şeyin bir sonu olduğu kimi, Paşinyanın da oyunbazlığının sonunun zamanı gəlir: "Paşinyan minbir hiylə ilə hördüyü corabın toruna özü düşüb. Ölkə fəlakət durumundadır. Repressiv şərait və ağır sosial-iqtisadi durum üzündən ölkəni tərk edənlərin sayı sürətlə artır".

## Ermənistanda yoxsulluq həddi 52 faizi keçib

Ermənistan Milli Statistika Xidmətinin məlumatına görə ölkə əhalisinin yarıdan çoxu yoxsulluq həddində yaşayır: "2008-ci ildə yoxsulluq həddi 27,6 faiz olub, bu gün isə bu göstərici artıq 52 faizi keçib. 2014-cü ildə Ermənistanın 5 min 242 vətəndaşı 44 ölkədən siyasi sığınacaq istəyib. Son iki ildə isə Ermənistandan siyasi sığınacaq üçün 10 min vətəndaş müraciət edib. Siyasi miqrasiya ilə yanaşı, Ermənistandan iqtisadi mühacirət də artıb. Son dönəmlərdə Ermənistandan mühacirət 4 min nəfər artaraq, 47 minə çatıb. Bunun nəticəsidir ki, Ermənistanda bölgələrdə yaşayan əhalinin sayı sürətlə azalan istiqamətdə inkişaf edir. Dramın qiymətdən düşməsi ölkədə bahalaşma prosesini sürətləndirib. Bu gün işğalçı Ermənistanda vəziyyət çox acınacaqlıdır. İqtisadiyyat böhran içərisindədir. Xaricdən axan külli miqdarda yardımlar isə əvvəlki səviyyədə olmadığından, əhalinin sosial durumu daha da ağırlaşıb. İstehsalat dayanıb, sənaye müəssisələri işləmir. Əmək haqları verilmir. Ermənistan əhalisi yoxsulluqdan kütləvi şəkildə ölkəni tərk edir. İşğalçı ölkədə ticarət dövriyyəsinin azalması problemləri daha da dərinləşdirir. Ermənistan artıq hər ayı iqtisadi geriləmə ilə başa vurur. Son dövrlərdə ölkədə xarici ticarət dövriyyəsi 222,5 milyon dollara bərabər olub. Bu isə, 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 51 faiz azdır".

Ermənistanın xaricdən iqtisadi asılılığı birə-on qat artıb. Xarici borc isə həddən artıq çoxalıb və onu qaytarmaq üçün ölkə lazımi resurslara malik deyil. Xarici ianə və yardımların kəsiləcəyi təqdirdə, Ermənistanın daha böyük səfalətə sürüklənəcəyi şəksizdir. Əhalinin getdikcə dərinləşən sosial problemləri, işsizlik, xarici sərmayənin az olması, istehsalın yoxluğu vəziyyəti daha da ağırlaşdırır. Ölkənin istehsalı, əsasən, dağmədən və kimya sənayesi çərçivəsində olub ki, hazırda burada da ciddi tənəzzül hökm sürür. Ölkə iqtisadiyyatını böhrana sürükləyən Paşinyan heç və Serj Sarkisyan iqtidarından geri qalmır. Təkcə son iki ayda hökumət müxtəlif maliyyə qurumlarından üst-üstə 450 milyon dollardan çox kredit alıb. Bununla da, Ermənistanın ümumi xarici kredit borcu artıq 6 milyard dollara çatıb. "Aykakan Jamanak" qəzeti yazır ki, Sarkisyan hakimiyyəti dövründə olduğu kimi, Paşinyan hökumətinin yalan vədlərinin boş və mənasız olduğunu artıq anlayır və sadəcə, xalqı aldatdığını aydın görürlər.

Bir sözlə, acınacaqlı siyasi situasiya ilə üzləşən N.Paşinyan, necə deyərlər, Ermənistanı iflasdan-iflasa sürükləməkdədir. Bu, faktdır ki, Ermənistanın heç bir sərvəti olmayan, qonşu ölkələrlə iqdisadi potensialı olmayan və nədən qazanıb iqdisadiyyat quracağı bəlli deyil.





## Mübariz Əhmədoğlu: "Paşinyanın ağıllı-savadlı və dərin düşüncəli rəhbər olmadığını erməni xalqı elə ilk gündən görüb"

Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri, politoloq Mübariz Əhmədoğlu N.Paşinyanın ağıllı-savadlı və dərin düşüncəli rəhbər olmadığını erməni xalqı elə ilk gündən görüb: "Bir sözlə, Paşinyanın hakimiyyət dönəmini təhlil edən siyasi şərhçilər və araşdırmaçı erməni yazarlar ölkədə heç bir inkişaf və islahatlar getmədiyini qeyd edirlər. Sabiq prezident Serj Sarkisyanın dövründən qalan tənəzzül, iflas, korrupsiya və bürokratik əngəllər bu gün də davam etməkdədir. Nikol Paşinyanın hakimiyyətə gəlişindən sonra Serj Sarkisyanın tərəfdarlarını vəzifələrdən çıxarmaqla və ya bir qismini həbsə atdırmaqla bir növ işini bitmiş hesab edir.

Ermənistanın geridə qalmış ölkə kimi hər zaman Rusiyanın köməyi hesabına yaşadığı sirr deyil. İndi isə Nikol Paşinyanın Avropa dairələrinin köməyinə güvənərək, yardım istəməsi də ölkənin iflas həddində olduğunu aydın şəkildə göstərməkdədir. N.Paşinyan S.Sarkisyanın yolunu tutub getməsi erməni xalqını daha ağır iflas vəziyyətinə salır".

## Ekspert: "Paşinyan özündən əvvəlki hakimiyyətdən daha pozucu və təxribatçı siyasət aparmağa çalışır"

Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı danışıqlarda tərəf kimi iştirak etməli olduğu barədə bəyanatının məqsədi danışıqları uzatmaqdan başqa bir şey deyil.

"Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev bildirib ki, N.Paşinyan yeni vəzifəsində özünü konstruktiv göstərməyə cəhd etsə də, əslində, özündən əvvəlki hakimiyyətdən daha aqressiv, daha pozucu və daha təxribatçı siyasət aparmağa çalışır: "Paşinyan bu gün Qarabağ probleminin həlli üçün illərdən bəri formalaşmış danışıqlar formatını dəyişməyə cəhd edir. Onun qondarma rejimin danışıqlar prosesində tərəf kimi iştirakı ilə bağlı iddiası formatı dəyişmək cəhdidir. Bilirsiniz ki, ATƏT-in Minsk Qrupunun mandatına uyğun olaraq, münaqişənin tərəfləri Azərbaycan və Ermənistan, münaqişənin maraqlı tərəfləri isə, Dağlıq Qarabağın Azərbaycan və erməni icmalarıdır. Danışıqlar da Azərbaycan və Ermənistan arasında gedir. Bu format çərçivəsində Azərbaycan indiyə qədər Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyəti barədə dünyada lazımi rəy yarada bilib. Bütün dünya bilir ki, Dağlıq Qarabağ Azərbaycan torpağıdır, Ermənistan təcavüzkardır, Azərbaycanın Dağlıq Qarabağ regionu və ətraf 7 rayonu işğal altındadır. Dünya artıq qəbul edir ki, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və ilkin olaraq, status-kvonun dəyişdirilməsi şərti ilə həll olunmalıdır. Bu gün Paşinyan bu fikri ortaya atmaqla formalaşmış həmin siyasi və hüquqi çərçivəni dəyişməyi hədəfləyib. Burada da məqsəd Dağlıq Qarabağ münaqişəsində danışıqlar prosesini yubatmaqdan başqa bir şey deyil. Paşinyan indi də qondarma rejimi dünyaya müstəqil subyekt kimi tanıtmağa cəhd edir. Bu da danışıqları pozan, qeyri-konstruktiv hərəkətdir və indiyə qədər əldə olunmuş nəticələri alt-üst etmək məqsədi güdür. Çox güman ki, Minsk Qrupunun həmsədrləri bunu anlayacaq və Paşinyanın bu siyasətinin qarşısında lazımi manevrlər qoyacaq".

Ekspert qeyd edib ki, vaxt uzatmaq, vaxt itirmək Azərbaycana sərf etmir. Paşinyanın məqsədi bu substantiv danışıqlardan yayınmaqdır. Amma məqsədinə çata bilməyəcək.

## Paşinyanın bəyanatlarında məqsəd zəif hakimiyyətini qoruyub- saxlamaqdır

Ermənistanın baş naziri Nikol Paşinyan hakimiyyətə gəldiyi gündən bir-birinin ardınca sərsəm bəyanatlarla çıxış etməsinə politoloqlar münasibət bildirərkən, vurğulayıblar ki, o, hakimiyyətini qorumaq üçün belə bir addım atır. Politoloqlar vurğulayırlar ki, siyasi savadsızlıq, xarici siyasətdən uzaq, "küçə demokratı"ndan ancaq belə sərsəm bəyanatlar gözləmək olar. Politoloqlar bildirirlər ki, sosial problemlər üzərində hakimiyyətə gələn Paşinyan və onun komandası bu problemləri həll etməyə qadir deyil. Ona görə də, Qarabağ məsələsi ilə bağlı yersiz bəyanatlar verir. Politoloq Mübariz Əhmədoğlu deyir ki, Paşinyanın Qarabağa dair dedikləri də ciddi qəbul olunmur.

Rusiya Siyasi Araşdırmalar İnstitutunun rəhbəri Sergey Markov "ATV.az"-a açıqlamasında bildirib ki, Paşinyanın açıqlamaları danışıqlar prosesini yubatmaq cəhdidir və o, bu yolla zəif hakimiyyətini saxlamağa çalışır. Yəni hakmiyyət bölgüsünü aparmamaq, birbaşa təmaslara keçməmək onun məqsədli şəkildə atdığı addımlardır: "Paşinyan bilir ki, hakimiyyəti o qədər də möhkəm deyil və ona görə də, Dağlıq Qarabağla bağlı vətənpərvər hisslərə arxalanmağa çalışır. Buna görə də, ilk olaraq, Qarabağa səfər etdi və gurultulu bəyanatlar verdi. Düşünürəm ki, Rusiya prezidenti Vladimir Putinlə futbol üzrə dünya cempionatı ərəfəsində gözlənilən görüşü zamanı Paşinyan özü Qarabağ məsələsini gündəmə gətirəcək, çünki Rusiya tərəfindən dəstək gözləyir. Amma ona bu dəstəyin veriləcəyini düşünmürəm. Çünki Rusiya onun hansı mövqeyə xidmət etdiyindən xəbərdardır".

Qeyd edək ki, Ermənistanın sabiq prezidentlərindən biri olan Robert Koçaryan da Paşinyanı səriştəsizlikdə günahlandıraraq, Dağlıq Qarabağla bağlı onun mövqeyini məsuliyyətsizlik adlandırıb. Koçaryan deyib ki, Paşinyanın bu kimi sərsəm bəyanatları onun Ermənistanın sabiq prezidentləri ilə şəxsi hesablaşmalarından irəli gəlir.

## Ermənistanın çıxış yolu - işğala son qoymaq!

Ekspert və şərhçilərin sözlərinə görə, Ermənistanın çıxış yolu işğala son qoymaqdır. Siyasi şərhçi Elçin Mirzəbəyli fikrincə, Paşinyan Ermənistanın işğala son qoymaqdan başqa çıxış yolu qalmayıb. Bu, artıq qabarıq şəkildə özünü büruzə verməkdədir. Paşinyanın hakimiyyətə gəlməsinə yandırılan yaşıl işığın təsadüfi olmadığını dilə gətirən E.Mirzəbəyli söyləyib ki, Ermənistanda keçirilən seçkilərdə total pozuntulara baxmayaraq, nə Qərb təşkilatları, nə də MDB müşahidəçi missiyası prosesin əleyhinə hər hansı fikir səsləndirmədi: "Görünür, hər iki tərəf, faktiki olaraq, Paşinyanın hakimiyyətdə qalmasında maraqlıdırlar. Bu, şübhəsiz ki, regionda baş verən proseslərlə, o cümlədən də, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ola bilər".

## Ermənistanın xilası Azərbaycanın əlindədir

Ötən dövr çox aydın şəkildə göstərir ki, Azərbaycanla normal münasibətlər yaratmadan, Ermənistanın bir dövlət olaraq, mövcudluğunu davam etdirməsi mümkün deyil.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qazanılan bu uğurlar ölkəmizin beynəlxalq miqyasda da mövqeyini əhəmiyyətli dərəcədə gücləndirən faktorlardan biri kimi çıxış edir: "Bütün bunlara paralel olaraq uğurlu xarici siyasət Azərbaycanı beynəlxalq ictimaiyyətə daha yaxşı tanıtdırmaqla bərabər, dünyanın diqqətini ölkəmizə yönəldib. Ermənistan uğursuz dövlətdir. Ermənistan dövlətçiliyi iflasa uğrayıb. Onların qəhrəmanları, onların generalları oğrulardır, onların ordusu oğru ordusudur. Bunu indi Ermənistan xalqı görür və Ermənistan hakimiyyəti deyir".

**A.SƏMƏDOVA**

## BSU-nun kollektivi Ümummilli Liderin 96-cı ildönümü ərəfəsində Cocuq Mərcanlıya səfər edib



Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə BSU-nun çoxsaylı müəllim və tələbə heyəti Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə səfər edib. Ulu Öndərin 96-cı ildönümü ərəfəsində baş tutan tədbirdə universitetin kollektivi iştirak edib.

Səfər marşrutuna, həmçinin, Sabirabad rayonundakı Şəhidlər Xiyabanında



uyuyan milli qəhrəmanlarımız Mübariz Əhmədovun, Fərhad Ağayevin, Murad Mirzəyevin məzarlarını ziyarət etmək daxil edilib. Sabirabad rayon icra hakimiyyətinin başçısı Nazim İsmayılov və aparat üzvləri qonaqları rayon mərkəzində qarşılayıb və birgə xiyabana baş çəkərək, müharibə qəhrəmanlarının məzarlarının üzərinə gül-çiçək dəstələri düzüblər. Qeyd edək ki, milli qəhrəman Mübariz Əhmədov BSU-da təhsil almış və Qarabağ uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olub. Tədbir iştirakçıları Sabirabad şəhidlərinin məzarını ziyarət edikdən və onların abidələrinin üzərinə gül dəstələri düzdükdən sonra yollarına davam ediblər.

BSU-nun nümayəndə heyəti Cocuq Mərcanlı səfəri çərçivəsində, həmçinin Füzuli rayonun Horadiz qəsəbəsində Aprel şəhidlərinin şərəfinə ucaldılmış əzəmətli "aprel şəhidlərinə xatirə" abidəsini də ziyarət etmiş və abidənin önünə gül dəstələri düzüblər.

Cocuq Mərcanlı kənd tam orta məktəbində universitet nümayəndələrini Cəbrayıl rayon icra hakimiyyətinin başçısı Kamal Həsənov, adıçəkilən məktəbin müəllim və şagirdləri qarşılayıb, məktəbin direktoru Zamin Həziyev məktəb barədə qonaqlara ətraflı məlumat verib. O, 1990-cı illərin əvvəlində ermənilər tərəfindən işğal olunmuş kənddə bütün infrastrukturların dağıdıldığını, kəndin xarabazara çevrildiyini bildirib. Z.Həziyev qeyd edib ki, 2016-cı il aprel döyüşlərində igid Azərbaycan əsgərləri Lələtəpəyə zəfər bayrağını sancdıqdan sonra, qısa müddət ərzində, kənd tamamilə yenidən qurulub, məktəb, məscid, klub binası tikilib, park salınıb. BSU-nun rektoru, professor N.Əliyeva çıxışına Ümummilli Lider Heydər Əliyevin bir qarış torpağımız da düşmən tapdağı altında qalmayacaq fikrini xatırlatmaqla başlayıb. O, Ulu Öndərin doğum günü ərəfəsində cəbhə bölgəsində yerləşən belə bir abad kənddə olması ilə qürur duyduğunu bildirib. N.Əliyeva Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində vətənimizin gündən-günə abadlaşdığını diqqətə çatdırıb.

Daha sonra məktəb şagirdləri qonaqlar üçün vətənpərvərlik mövzusunda şeirlərlə çıxış ediblər. BSU nümayəndələri məktəbə sutəmizləyici "Spenser" aparatı, laminasiya qurğusu, məktəb kitabxanasına xeyli sayda kitab hədiyyə verib, hər bir məktəbliyə ayrılıqda hədiyyə bağlaması təqdim ediblər. Qonaqlar daha sonra ağacəkmə aksiyası keçirərək, Bakıdan gətirdikləri tingləri məktəb həyətində əkib-sulayıblar. Səfərin ən maraqlı məqamlarından biri də Cocuq Mərcanlı kəndi və onun tarixi ilə ətraflı tanışlıq olub, uşaq bağçasına, məscidə baş çəkib və istirahət üçün nəzərdə tutulan parkda gəzintiyə çıxıblar.

Konsertdən öncə, söz alan tərbiyə işləri üzrə prorektor, dosent Xanım Sultanova Ulu Öndərin doğum gününün işğaldan azad olmuş Cocuq Mərcanlı kəndində qeyd edilməsini gələcək böyük qələbələrin xoş sorağı kimi dəyərləndirib. O, növbəti bayram şənliklərinin Şuşada, Qubadlıda, Zəngilanda keçirilməsini, Azərbaycan bayrağının daha uca zirvələrdə dalğalanmasını arzu etdiyini dilə gətirib.

BSU-nun tələbələri "Qayıdış" İcma Klubunda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Ümummilli Lider-xalqın qəhrəman oğlu" adlı geniş konsert proqramı ilə çıxış ediblər.

**ZÜMRÜD BAYRAMOVA**

## "Biz NATO-dakı dostlarımızın müttəfiqlik ruhuna əməl etmələrini gözləyirik"



Biz NATO-dakı dostlarımızın müttəfiqlik ruhuna əməl etmələrini, təşkilatın prinsiplərinə uyğun davranmalarını gözləyirik. SİA Anadolu agentliyinə istinadla xəbər verir ki, bunu Ankarada keçirilən "NATO Şurası və NATO Aralıq dənizi Tərəfdaşlığı Dialoqu" konfransında çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bəyan edib.

Türkiyə Prezidenti bildirib ki, hazırda beynəlxalq təhlükəsizlik sistemində ciddi fəsadlar yaranıb və Şimali Atlantika Alyansı ölkələrini təhdid edən terror aktlarının sayı getdikcə artmaqdadır. Onun sözlərinə görə Ankara son səkkiz ildə Suriyadan gələn terror təhlükəsinin qarşısını almağa, qeyri-leqal miqrasiyanın ağır nəticələrini aradan qaldırmağa səy göstərir. Türkiyə İŞİD təhlükəsini neytrallaşdırmaq məqsədilə "Fərat qalxanı" adlı genişmiqyaslı hərbi əməliyyat keçirib və terrorçu qruplaşmanı darmadağın edən ilk NATO ölkəsi olub.

## "Ulu Öndər Heydər Əliyev- 96"

*YAP Biləsuvar rayon təşkilatı Ulu Öndər Heydər Əliyevin 96-cı ildönümü ilə bağlı futbol turnirinə start verib*



Dünən Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar YAP Biləsuvar rayon təşkilatı və rayon Gənclər və İdman İdarəsi ilə birlikdə ümumrayon futbol turnirinin keçirilməsinə start verilib.

Turnirin açılışında Biləsuvar rayonunun bütün kəndlərini əhatə edən komandalar iştirak edib. Futbol turnirinin açılışında iştirak edən YAP Biləsuvar rayon təşkilatının aparat rəhbəri Əjdər Niftiyev Ulu Öndərin gənclərə göstərdiyi diqqət və qayğıdan, bu gün bu uğurlu siyasətin Onun layiqli davamçısı ölkə Prezidenti İlham Əliyev tərəfindən davam etdirilməsini vurğulayıb. Bildirib ki, dövlət başçısının, bütün sahələrdə olduğu kimi, idman sahəsinə xüsusi diqqət və qayğısı gənclərin idmana daha çox meyil etməsinə səbəb olub.

Ə.Niftiyev onu da vurğulayıb ki, artıq Azərbaycan mötəbər idman yarışlarına ev sahibliyi edir və təsadüfi deyildir ki, respublikamız dünyada idman ölkəsi kimi tanınır.

Natiq daha sonra turnirdə iştirak edən komandalara uğurlar arzulayıb. Tədbirdə şıxış edən Biləsuvar rayon Gənclər və İdman İdarəsinin rəisi Azad Quliyev Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyevin ölkədə idmanın inkişafına göstərdiyi diqqət və qayğıdan danışıb. Həmçinin, yarışda iştirak edən bütün idmançılara müvəffəqiyyət arzulayıb. Bununla da futbol turnirinə start verilib.

**RƏFİQƏ**

## Vətəndaşlar "ASAN xidmət"də növbə gözləmədən xidmət ala biləcəklər




Dünəndən istifadəyə verilən "ASAN xidmət" mobil tətbiqi vətəndaşların işini daha da asanlaşdırmağa hesablanıb. Bu tətbiqi "Android" əməliyyat sistemi ilə çalışan mobil qurğular üzərindən yükləyən vətəndaş özünə şəxsi kabinet yaradır, yararlanmaq istədiyi xidmətə uyğun olaraq "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərindən birini seçir, zəruri sənədlərlə tanış olur və növbə götürür. AZƏRTAC xəbər verir ki, bu zaman vətəndaşa öncə müvafiq xidmət üzrə növbənin ən az olduğu mərkəzlər təqdim edilir. Son qərar isə vətəndaşındır. Ya növbənin daha az olduğu mərkəzi seçir, ya da ona ən yaxın olan mərkəzi. Beləliklə, vətəndaş, növbəsiz, vaxt itkisi olmadan, "ASAN xidmət"in imkanlarından sistemin təqdim etdiyi vaxtda yararlana bilir. Daha ətraflı bu linkdə tanış olmaq olar: https://www.youtube.com/watch?v=uyR5a_HspH0

## Nazir müavini: Azərbaycanda fərdi sahibkarların 20 faizini qadınlar təşkil edir




Ölkə üzrə fərdi sahibkarların təqribən 20 faizini qadınlar təşkil edir. AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov deyib. "Qadın sahibkarlığının inkişaf etdirilməsi əsas fəaliyyət istiqamətlərdəndir və Azərbaycan-Almaniya Birgə Proqramı çərçivəsində biznesin idarə edilməsi üzrə Almaniyada ixtisasartırma kursu keçmiş iştirakçıların təxminən 20 faizdən çoxu qadın sahibkar olub", - deyə nazir müavini qeyd edib.

## Moskva aeroportunda yanan təyyarədə Azərbaycan vətəndaşı olmayıb




Moskva aeroportunda qəzaya uğramış təyyarədə həlak olanlar arasında Azərbaycan vətəndaşı yoxdur. Bu barədə AZƏRTAC-a Azərbaycanın Rusiyadakı səfirliyindən məlumat veriblər.

Rusiya Fövqəladə Hallar Nazirliyinin məlumatına görə, qəzada həlak olanların siyahısında adı çəkilən Novruz İsgəndərov Dağıstanda yaşayan Rusiya vətəndaşıdır. Xatırladaq ki, mayın 5-də Moskvadan Murmanska uçan təyyarə səmaya qalxdıqdan 28 dəqiqə sonra qəza enişi edib. Eniş zamanı təyyarənin mühərriklərində yanğın başlayıb. Təyyarədə olan 78 nəfərdən 41-i həlak olub, 9-u müxtəlif xəsarətlərlə xəstəxanaya yerləşdirilib.

## Nigerdə güclü partlayış nəticəsində 55 nəfər ölüb



Nigerin paytaxtı Niameydə Diori Hamani Aeroportu yaxınlığında baş vermiş güclü partlayış nəticəsində ən azı 55 nəfərin öldüyü bildirilir. SİA CNN telekanalının saytına istinadla xəbər verir ki, Nigerin daxili işlər naziri Bazum Muhammad hadisə yerində jurnalistlərə müsahibəsində partlamanın yanacaq dolu tankerin aşması nəticəsində baş verdiyini deyib. Onun sözlərinə görə, parlayışdan əvvəl ətrafdakı insanlar aşan sisterndən sızan yanacağı borulara çəkməyə başlayıblar və onlardan birinin motosikletindəki qığılcım tankerin havaya sovrulmasına səbəb olub. Nazir bildirib ki, insident nəticəsində ən azı 55 nəfər həlak olub, 37 insan isə müxtəlif dərəcəli yanıq xəsarətləri ilə xəstəxanaya çatdırılıb. Hadisə yerinə gələn Nigerin Baş naziri Brigi Rafini ölənlərin ailələrinə başsağlığı verib, hökumətin yaraların müalicəsi üçün hər cür yardım edəcəyini deyib.

# "AXH" rəsmən parçalandı!

*İsgəndər Həmidov kimin sifarişini həyata keçirir?*



***Uzun müddətdir ki, daxilində ziddiyyətlər müşahidə edilən "Azərbaycan Xalq Hərəkatı" adlı qurum bu dəfə qarşıdurmalara, intriqa və çəkişmələrə dözməyib, rəsmən parçalandı. Düzdür, parçalanma sindromları daha əvvəllər müşahidə edilsə də, hətta qurumun haçalanmış qanadları eyni gündə ayrı-ayrı iclaslar keçirsələr də, rəsmi parçalanma məsələsi gündəmə çıxmırdı. Lakin onu gündəmə çıxaran da, ayrılıqda iclas keçirib, rəhbərlik postlarını müəyyənləşdirən də, Azərbaycan Milli Demokratik Partiyasının sədri İsgəndər Həmidov oldu.***

Əbəs deyil ki, onun tərəfində olanlar - Xalq Azadlıq Partiyasının (XAP) sədri Valeh Mirzəyev "AXH"-nin ali məclisinin sədri, Azərbaycan Liberal-Demokratik Partiyasının (ALDP) sədri Fuad Əliyevlə "Azad Azərbaycan Partiyası"nın sədri Həsən Həsənov isə, onun müavinləri seçiliblər. Ümumiyyətlə, idarə heyətinin tərkibi 26 nəfərdən ibarət olub. Bu isə, bilavasitə adıçəkilən qurumun parçalanması və artıq iki "AXH"-nin ayrı-ayrılıqda fəaliyyət göstərməsi reallığını ortaya qoyub.

### Əks qanad: "Mediada, ictimaiyyət arasında "AXH" ilə bağlı sualların cavabı getdikcə tapılır"

Əks qanadda olanlar isə, İ.Həmidovun tərəfdarları olan "hərəkatı" real olaraq tanımadıqlarını qeyd edirlər. Misal üçün, "Vətəndaş və İnkişaf Partiyası"nın sədri Əli Əliyev həm də dönəm sədri olduğu üçün belə bir bəyanat yayıb ki, hər iki tərəfin özünün məsələyə münasibəti ola bilər. "Burada ən yaxşı hakim zamandır" deyən "VİP" sədri əlavə edib ki, tədricən insanlar nəyin harada olduğunun fərqinə varmağa başlayıblar və baş verənlər artıq düzgün qiymətləndirilir. Ona görə də, biz narahat deyilik. Beləliklə, İ.Həmidov qanadının hansı qərar çıxarmasından asılı olmayaraq, Ə.Əliyev öz işlərini davam etdirəcəklərini qeyd edib və bildirib ki, parçalanmanın özü hər şeyi aydın edir: "Tədricən proses aydınlaşmağa doğru gedir. Mediada və ictimaiyyət arasında "AXH" ilə bağlı sualların cavabı getdikcə tapılır".

### Parçalanma əmrini İsgəndər Həmidova Əli Kərimli-Cəmil Həsənli cütlüyü verib

Ə.Əliyev əks-qanadın məclis və müavin postları təşkil etməsinə də mövqeyini bildirib. "Biz öz fəaliyyətimizlə məşğuluq. Fəaliyyətimiz də əsasnaməyə söykənir. Əsasnamədən kənar heç bir iş görmürük. Bizim əsasnaməyə görə, məclis və rayon şöbələri təşkil olunmalıdır. Hazırda bu işlərlə məşğuluq. İşlərimizi getdikcə daha da gücləndiririk. Müxtəlif rayonlarla təmaslarımız artmaqdadır. Məclis üzvləri müəyyən edildən sonra sosial siyahı ilə deyil, konkret mövqeləri olan təmsilçilərin siyahısı əsasında məclisimiz keçiriləcək" deyə qeyd edən "VİP" sədri cavab tədbirləri görüləcəyini gizlətməyib.

Bununla vəziyyətin daha da kritik həddə çatdığını demək olar. O cümlədən, artıq belə bir qənaətə gəlmək mümkündür ki, əgər AMDP sədri İ.Həmidov zaman-zaman "Milli Şura" və AXCP-nin yanında görünürsə, onun müəyyən sövdələşmələrə gedərək, "AXH"-nin fəaliyyətini, daha doğru desək, parçalanmasını, bilavasitə Əli Kərimli-Cəmil Həsənli cütlüyündən sifariş aldığını deyə bilərik. Bu baxımdan, qarşıda daha ciddi və barışmaz müxalifətdaxili savaşların start alacağını proqnozlaşdırmaq mümkündür.

***Rövşən RƏSULOV***

# Ermənilərin qorxu içində olduğu etiraf edilir



Son günlərdə Azərbaycan təmas xəttində aktivlik göstərir və şərti sülh kontekstində bu həddindən artıq narahatlıq doğurur. SİA xəbər verir ki, bu barədə Ermənistana məxsus 1in.am saytında yazı dərc olunub. Yazıda qeyd olunur ki, aprelin 30-da Azərbaycan tərəfdən atılan atəş nəticəsində 32 yaşlı əsgər Arqişti Stephanyan başından yaralanıb. O da qeyd olunub ki, bir neçə gün əvvəl Azərbaycanın silahlı qüvvələri çörək daşıyan maşına atəş açıb və avtomobilin kuzovuna zərər yetirib. Həmçinin, 4 may tarixində açılan atəş nəticəsində 1998-ci il təvəllüdlü hərbçi Aqanik Zoroqlyanın yaralandığı da saytda öz əksini tapır. Sözügedən saytda dərc olunan yazıda 1-3 may tarixlərində Azərbaycan və Türkiyənin birgə keçirdiyi hərbi təlimlərə də toxunulub. Etiraf olunsa da ki, bu təlimlər artıq dövrü xarakter daşıyır, amma həmin təlimlərin gərginliyi dəfələrlə artırdığı da vurğulanır. Ermənistana məxsus olan mətbuat səhifəsində qeyd olunur ki, faktların kompleks təhlilinə əsaslandıqda Azərbaycanın təmas xəttində dayanmayacağı və irəliləyəcəyi görünür. Yazıda o da vurğulanır ki, tarixi təcrübə və statistikaya əsaslanan bu proqnoz göstərir ki, Azərbaycan istifadə edilən silah növlərinin kalibrlərini daim artırmağa meyillidir. Ötən dövrü, 2010-2016-cı illəri xatırladan yazıda keçmişin acı təcrübəsini unutmayaraq Azərbaycanın inkiafını nəzərə almağın vacibliyi də həyacan siqnalı kimi qeyd olunur. Sözügedən erməni mətbuat səhifəsində həmçinin Prezident İlham Əliyevin Ermənistan hakimiyyətini qorxuya saldığı, ermənilərin qorxu içində olduğu da etiraf edilir. Qeyd olunur ki, rəsmi Bakı nəticə etibarı ilə müzakirələrdə üstünlük qazanmaq şansına malikdir və Paşinyan bundan sonra manevr edə, hadisələri uzada bilməyəcək.

***İnam Hacıyev***



**RƏFİQƏ**

## YENƏ MİTİNQ MƏZHƏKƏSİ VƏ YA HEÇ YERƏ APARMAYAN YOL

Hansısa bir filmdə belə bir fikir deyilir: küçə mənə dar gəlir. Ancaq bizim bu "müxalifətçiyəm" deyənlərin mitinq xəstəliyi və məzhəkəli şou göstərmək üçün meydanın onlara dar gəlməsi, lap klounların məzhəkəli oyunlar çıxarmalarına bənzəyir. Bir də, ay qardaş, 20 ildən çoxdur ki, mitinq şousu, türklər demişkən, "yapırsınız", kimlər olur bu mitinq oyununuzda? Ya küçə süpürənlər, onlar da abırsız Əli Kərimli zibillərini zibil qutularına atmaq üçün yığışırlar, ya da küçədən gedənlər ayaq saxlayır ki, desinlər, bu qədər abırsızlıq olmaz. Biabırçılıqdır,.. Ancaq neyləyəsən ki, bu tüpürcəklə bir özlərinə yığışalar. Elə may ayının 5-nə mitinq keçirmək istədi bu Ə.Kərimli. "Milli Şura" adı ilə "birlik" çağırışı etməyə çalışdı. Bu, Əli Kərimlinin mitinqi idi, ona səs erən də olmadı. Çünki ötən dəfə Ə.Kərimli "birlik" deyib 5-6 partiyanın o biabırçı mitinqdə olmasını "birlik" hesab edərək, AXCP sədri elə zənn etdi ki, bu dəfə də onu eşidəcəklər. Özü də Ə.Kərimli sosial şəbəkədə mitinq barədə başından yekə, özü də çərçivəyə sığmayan sözü müxalifət "liderləri"nin əsəblərinə necə dəyibsə, lap divarı dağıdırmışlar. Əşşi, siz də qəribə məxluqsunuz. Bilmirsiniz ki, satqın Ə.Kərimlinin yolu ilə gedənin axırı nə olur? Uçurum! Ə.Kərimli deyir ki, ötən mitinqdə məni hamı "müxalifətin lideri" kimi qəbul edib. Sonrasında isə, iztehza ilə yazır ki, "amma 10 min adam yox, 500 min adam var idi". Elə bu sözdən əsəbləşən müxalifət partiya sədrləri Ə.Kərimlinin üzünə tüpürməsinlər, nə etsinlər?

Cəmiyyət bir daha gördü ki, özlərini ictimaiyyətə "müxalifət liderləri" kimi təqdim edən Ə.Kərimli və C.Həsənli Qərb dairələrindən mitinq keçirməklə bağlı tapşırıq alıblar. Verdiyi bəyanatlarla insanları və ictimai şüuru manipulyasiyaya məruz qoymağa çalışan radikallar ümummilli mənafeyi, milli təhlükəsizliyi özlərinin və onları "himayə edən" mərkəzlərin maraqlarına qurban vermək üçün xüsusi canfəşanlıq edirdilər. Lakin müxalifətin "ölkəni silkələmək" iddiası, həmişə olduğu kimi, sabun köpüyü kimi partlayıb. Bu, bir daha təsdiqləyir ki, heç bir bazası olmayan dağıdıcı müxalifətin aksiya çağırışına əhəmiyyət verən yoxdur. Əvvəllər beş-on manat verib aldatdıqları adamları da tapa bilmirlər. Hamı işində-gücündədir. Ə.Kərimli isə, hələ də ümidlə dünyaya qara eynəklə baxır. Görünən odur ki, çürüməkdə olan dağıdıcı müxalifətin iflası qaçılmaz olduğu kimi, Ə.Kərimlinin də mitinq şousu heç bir yerə apara bilməyəcək.

Beləliklə, görünən də budur ki, müəyyən xarici qüvvələrin əlində alətə çevrilərək, konkret maddi maraqlara söykənən, Ə.Kərimli kimi satqınlar qarşısında götürdüyü öhdəlikləri yerinə yetirmək naminə ucuz siyasi şoular təşkil etməyə yönəlmiş ölü qurum olan "Milli Şura" fəaliyyəti ilə Azərbaycan cəmiyyətində ikrah hissi yaratmaqdan başqa bir "iş" görməyə qadir deyil. Artıq bu, özünü dəfələrlə sübut edib. Belə olan halda, Ə.Kərimlinin "birlik" istəyi elə istək olaraq qalacaq.

# "Nar" dilerlərlə birgə ötən ilin nəticələrini müzakirə edib

Ölkənin ən gənc mobil operatoru "Nar", satış şəbəkəsinin nümayəndələri ilə keçirdiyi görüşdə 2018-ci ilin nəticələrini açıqlayıb və ötən ilin müvəffəqiyyətli bir il olduğunu elan edib. Təqdim etdiyi yüksəkkeyfiyyətli mobil rabitə xidmətləri və müştəriyönümlü fəaliyyəti ilə seçilən mobil operatorun yeni abunəçilərinin sayı ötən il ərzində 22% artıb. Dilerlər sağlam və dayanıqlı iş birliyinə əsaslanan fəaliyyət nəticəsində ümumi satışın 65%-ni həyata keçiriblər ki, bunun da 68%-i Bakı, 32%-i isə regionların payına düşür.

"Nar"-ın Kommersiya direktoru Qəhrəman Kazımovun sözlərinə görə, "Nar"-ın əsas hədəfi şirkətin müştəriyönümlü brend strategiyasını satış şəbəkəsinin fəaliyyətində də əks etdirməkdir: "Nar" olaraq pərakəndə satış bazarında yeni bir inkişaf yolunun başlanğıcındayıq. Bizim kompakt, lakin çox aktiv fəaliyyət göstərən rəsmi diler şəbəkəmiz var. 2019-cu ilin mühüm planlarından biri diler şəbəkəmizi müasir tələblərə uyğun yeniləmək, təkmilləşdirmək və genişləndirmək-dir. Bununla da, məqsədimiz "Nar" dükanlarını ziyarət edən müştərilərimizə üstün müştəri xidməti göstərmək, onların tələblərinə uyğun asan və rahat təkliflər irəli sürmək, bir sözlə, mükəmməl müştəri təcrübəsini təmin etməkdir".

"Nar" cari ildə satış şəbəkəsinin genişləndirilməsi məqsədilə, dükan sayını 90-a çatdırmağı, bütün dükanlarda şirkətin brend strategiyasını əks etdirmək üçün yenilənmə işləri həyata keçirməyi, eyni zamanda, effektiv fəaliyyət və



müasir müştəri təcrübəsini təmin etmək üçün prosesləri müasir standartlara uyğun olaraq təkmilləşdirməyi qarşısına hədəf qoyub.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

TƏRS BAXIŞ

# ADP və "Ümid" "Milli Şura" və "AXH"yə qarşı blok yaradır

*Sərdar Cəlaloğlu: "AXH" üsyanla, Əli Kərimli isə "küçə demokratiyası" ilə xalqı inandırmaq istəyir"*

**Bir zamanlar "Qarabağ" adlı blokda fəaliyyət göstərən ADP və "Ümid" partiyalarının sədrləri Sərdar Cəlaloğlu və İqbal Ağazadə bir araya gələrək, yenidən siyasi blok yaratmağa cəhd göstərirlər. Halbuki hələ 2010-cu ildə "Qarabağ" blokundan deputatlığa namizədliyini verərək, parlamentdə kreslo qazanmış "Ümid" sədri, onun deputat olması üçün kifayət qədər fəaliyyət göstərmiş ADP sədri S.Cəlaloğlunu yarı yolda buraxdı. Nəticədə, "Qarabağ" bloku fəaliyyətini dayandırdı və tərəflər arasında münasibətlər kəskin şəkildə soyudu.**

2015-ci ilin parlament seçkilərində də iştirak edərək, kreslosunu qorumaq istəyində olan İ.Ağazadə bu dəfə heç yerdən siyasi dəstək ala bilmədiyinə görə, kənarda qaldı, həmçinin, rüsvayçı şəkildə digər müxalifət partiyasının rəhbəri - ASDP-nin sədri Araz Əlizadəyə uduzdu.

## Sərdar Cəlaloğlu İqbal Ağazadənin "Qarabağ" blokundakı deputatlıq xəyanətini unudub?

Bütün bunlardan sonra, qarşıdan gələn seçkilərdə yenidən xal toplamaq arzusuna düşən İ.Ağazadə özünü bir daha ADP sədrinin yanında tapdı. Hətta onu yola gətirərək, yeni siyasi blok yarada biləcəklərini inandırdı. Görünür, S.Cəlaloğlu ya sadəlövhlüyünün, ya da nəticə çıxara bilməmək qabiliyyətinin olmaması səbəbindən növbəti dəfə siyasi bicliklərə bəlli qədər malik olan İ.Ağazadənin şirin dilinə aldanıb. Əslində, bu, onların öz işləri olsa da, əsas məqam budur ki, artıq ADP sədri yaradılacaq blokun həm "Milli Şura"-AXCP cütlüyünə, həm də parçalanmış "AXH"-yə qarşı alternativ qüvvə olacağı anonsunu partiyasına yaxın mətbu orqanına verdiyi müsahibəsində deyib. Hətta bildirib ki, məsələ ilə bağlı İ.Ağazadə ilə yanaşı, digər müxalifət partiyalarının sədrləri ilə də görüşüb.



"Azərbaycanda iki blok-"Milli Şura" və "Azərbaycan Xalq Hərəkatı" fəaliyyət göstərir", deyə xatırladan ADP sədri özünün və "Ümid" partiyasının həmin bloklardan kənarda dayandığını bildirib, hətta "AXH"-də müşahidəçi olmasına, bu qurumun iclaslarına qərargahını ayırmasına rəğmən, onun qərarlarını qəbul etmədiyini də deyib.

## "Xalq "Milli Şura"ya və "AXH"-yə kütləvi şəkildə qoşulmur, onlara ciddi dəstək vermir"

O, iki adıçəkilən siyasi partiyalar bloklarında təmsil olunmamasını onların qiyamçı və radikal olmaları ilə əlaqələndirib: "Qeyd edim ki, son vaxtlar "AXH"-də parçalanma əmələ gəldi. Ümumiyyətlə, biz özümüz üçün bir şeyi müəyyənləşdirmək istəyirdik ki, Azərbaycan xalqı hansı ideyanın arxasınca gedə bilər. Çünki "AXH" üsyanın, cəmiyyətdə radikal dəyişilmələrin tərəfdarı kimi çıxış edir.

Ə.Kərimli və onun tərəfdarları isə Azərbaycanda dəyişilmələrin "küçə demokratiyası" ilə mümkünlüyünə xalqı inandırmaq istəyir, bu istiqamətdə cəhdlərə çağırırlar. Lakin görürük ki, xalq "Milli Şura"ya və "AXH"-yə kütləvi şəkildə qoşulmur, onlara ciddi dəstək vermir".

"Azərbaycan Xalq Hərəkatı"na qoşulmayan, Ə.Kərimlinin apardığı siyasi xətdə təmsil olanmayan qüvvələri bir araya gətirərək, üçüncü bir yolun başladılması qənaətinə gəlmişik" iddiasını irəli sürən S.Cəlaloğlu yaradılacaq yeni birliyin də blok olacağını deyib.

## İqbal Ağazadə Sərdar Cəlaloğlunu "AXH"-nin "qaynar qazanına" doğru itələyib

Burada maraqdoğurucu məqam, İ.Ağazadənin S.Cəlaloğlu daha ağır məsuliyyəti yükləməsi məsələsidir. Çünki ADP sədri artıq "AXH"-də yaranmış parçalanmadan maksimum şəkildə istifadə etməklə, oradakı kiçik, ictimai rəyə heç bir təsir qüvvəsi olmayan partiyaları da yeni yaradacaqları bloka daxil etmək istəyir, bunu etiraf da edir: "Şəxsən mən "AXH"-də olan partiyalarla danışıqlar aparmışam. Qənaətimə görə, həmin adamlar o blokun fəaliyyətinə bir o qədər də inanmırlar və yaxud da perspektivini görmürlər".

Düzdür, S.Cəlaloğlu, hələlik, konkret "hə" cavabı almadıqlarını da deyib və gözləmə mövqeyində olduqlarını bildirib, ancaq başqa tərəfdən, istər "AXH", istərsə də "Milli Şura" olsun - onlar sözügedən plandan xəbərdar olduqdan sonra ADP-"Ümid" partiyalarına qarşı amansız hücumlara başlaya bilərlər. Yəni İ.Ağazadə S.Cəlaloğlunu "AXH"-nin "qaynar qazanına" doğru itələyib.

Çünki zorla bir neçə partiyanı bir araya gətirib, fəaliyyətsiz qurumda saxlayan radikallar son şanslarının da əldən çıxacağından ehtiyat edirlər. Bu baxımdan, ənənəvi müxalifətdə vəziyyət get-gedə daha ağır böhrana doğru sürüklənir. Hətta yeni bloklar yaransalar belə, müxalifətin siyasi ölüm halı dəyişilməz qalacaq.

**Rövşən NURƏDDİNOĞLU**

## DİN: Ötən gün törədilmiş 23 cinayətin üstü "isti izlər"lə açılıb



Ötən gün törədilmiş 23 cinayətin üstü respublikanın daxili işlər orqanları tərəfindən "isti izlər"lə açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlki dövrlərdən bağlı qalmış bir cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 10 nəfər, o cümlədən borclu şəxs qismində axtarılan 5 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Respublikanın avtomobil yollarında baş vermiş dörd ağır yol-nəqliyyat hadisəsi nəticəsində beş nəfər ölüb, iki nəfər xəsarət alıb. Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 13 fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 23 nəfər saxlanılıb.

## Evində qanunsuz olaraq odlu silah saxlayan şəxs tutulub

Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları əllərdə qanunsuz saxlanılan odlu silah-sursatın aşkarlanması məqsədilə növbəti uğurlu əməliyyat tədbiri həyata keçiriblər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş İdarəyə "Tapança Adil" ləqəbli paytaxt sakini Adil Kəngərlinin qanunsuz olaraq silah əldə etməsi və gizlətməsi barədə məlumat daxil olub. Həyata keçirilən əməliyyat nəticəsində həmin şəxs Xətai rayonu General Mehmandarov küçəsində saxlanılıb. Onun yaşadığı mənzildən sandıqçasında 6 patron olan "Makarov" markalı tapança və metal dəyənək aşkarlanaraq götürülüb. A.Kəngərli indiyədək Cinayət Məcəlləsinin oğurluq, quldurluq, qanunsuz odlu silah əldəetmə və saxlama maddələri ilə dəfələrlə məhkum olunub. Onun barəsində Baş İdarənin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 228.1-ci (Qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldəetmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə) və 228.4-cü (Qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldəetmə, satma və ya gəzdirmə) maddələri ilə cinayət işi başlanılıb. A.Kəngərli barəsində Nərimanov Rayon Məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilib.



Təhmasib Novruzov

## Tövbə etməyən öyrənmişlər

**Demişik, deyirik və nə qədər belə davam edəcəksə, yenə deyəcəyik ki, Allah bu millətə ağıllı-başlı bir müxalifət yetirsin. Bilmək olmur, bu müxalifət adı ilə özünü toy toğlusu kimi ortaya atan əli(l)lərdən millətin canı haçan qurtaracaq.**

Bu binəvalar özləri də fərqinə varmadan (bəlkə də fərqinə vararaq) müstəqil dövlətimizdə cəmiyyətin siyasi və mənəvi tərəqqisinə nə qədər ağır zərbələr vurduğunu ağlı başında olan, azad düşünməyi bacaran hər kəs yaxşı anlayır. Müxalifət olmaq özü bir şərəfli siyasi fəaliyyət formasıdır. Sağlam və konstruktiv müxalifət ölkənin inkişafına xidmət edən proqramlar, konsepsiyalar qoyur ortaya, bunu iqtidardakılar etməyəndə də, xalqın etimadını qazanıb hakimiyyətə gəlir, özü olur iqtidar və inkişafımıza yönələn addımları ilə cəmiyyətin inkişafında rol oynayır. Bizim başabəla (əslində, millətə və dövlətə bəla) müxalifətimiz isə yaxşı nə varsa onu gözdən salmağa, dövlətə və dövlətçiliyə zərər vuran addımlarını genişləndirməyə, şər-böhtan və qarayaxmaları ilə cəmiyyəti çaşdırmağa cəhd edir ki, bunun da adını müxalifət deyil, antidövlətçilər deyib çağırmaq daha doğru olar. Lap elə son günlərin olaylarına ekskurs etsək, dediyimizin həqiqət olduğuna şübhəmiz qalmaz.

On dörd il əvvələ qədərki müxalifətin inhisarında olan qəzetləri götürüb vərəqləyək. Orda bu zavallılar Əli İnsanov barədə nələr yazmırdılar? Azərbaycanın baş korrupsioneri, millətə xəstəlik bəxş eyləyən səhiyyə naziri, elmə üzqarası olan akademik... Daha, nə bilim nələr! Hətta o qədər nifrət edirdilər ki, qəzetlərində onu "İnsanov" deyil, "heyvanov" adlandırmaqdan da çəkinmirdilər. Elə ki, bəd əməllərinin cəzası olaraq iqtidar onu həbs edib saldı içəri ki, bəlkə içəridə bir az yalnız qalıb, düşünübdaşına, ağıllana, Əli İnsanov döndü oldu süddən çıxmış ağ qaşıq. Başladılar ki, bu adam dünya şöhrətli (?) alimakademikdir, kəşfləri var, dünya onun tibbi ixtiralarından istifadə edir, belə bir Azərbaycan ziyalısını iqtidar məhv edir. Bütün bunları da elə həyasızcasına yazırdılar, deyirdilər ki, adamın matı-qutu quruyurdu ki, dünənki simalarını bu adamabənzərlər necə asanlıqla dəyişdilər?!. Təkcə Əli İnsanovla bağlı deyildi, belə sifətdəyişkənliyinin Rəsul Quliyevlə, Rəfail Allahverdiyevlə (Allah rəhmət eləsin), Fərhad Əliyevlə, ümumiyyətlə, hakimiyyət tərəfindən xalqın mənafelərinə zidd fəaliyyətləri ilə bağlı vurulan digər eksməmurlarla da bağlı şahidi olmuşuq. Sizləri bilmirəm, amma mənim qənaətimə görə, bizim müxalifət adlanan şoumenlərimizi dövlətin, millətin, xalqın taleyi deyil, cibləri maraqlandırır. Elə ona görə də, ciblərini doldurmaq üçün hakimiyyətdə tutduğu mövqeyindən sui-istifadə edib milyonlar yığan bu mafiozların pulundan yararlanmaq üçün, dərhal simalarını üç yüz altmış dərəcə dəyişirlər. Belədə bu siyasət dəllallarını, siyasi biznesmenləri normal, sağlam müxalif qüvvə hesab etmək olarmı? Təbii ki, yox. Onlar mənəviyyatca xəstə, hətta deyərdim, mənəvi əlil siyasilərdir ki, müalicələri də artıq mümkünsüzdür. Hərdən düşünürəm ki, bəlkə bir "mənəvi əlillik" statusu müəyyənləşdirilə, belələrini də o statusa daxil edib, hərəsinə beş-on manat pensiya verilə ki, qaxılıb oturalar yerlərində, gözlərini vurulmuş korrupsioner məmurların, xaricdəki anti-Azərbaycan qüvvələrin, erməni lobbisinin pullarından çəksinlər? Amma inanmıram ki, onlar bu əməllərindən əl çəkələr. Çünki öyrəşiblər. Öyrəşmişə də min il əvvəl də tövbə olmayıb, bu gün də yoxdur.

Bir-iki kəlmə də bir ayağı qəbirin kandarında olan Əli İnsanov haqqında demək istəyirəm. Əvvəla, onun nə mal olduğu bütün Azərbaycan cəmiyyətinə məlumdur. Odur ki, başlamağa hazırlaşdığı şəxsi intiqam, qisas davasından da özü daha çox zərər görəcək. Bu, şəksizdir. Çünki indiki millət on beş-iyirmi il əvvəlki düşüncədən çox irəli gedib və kimin kim olduğunu, kimin ortaya hansı məqsədlə düşdüyünü də yaxşı anlayır. Belədə, bu xalqı aldatmaq istəyinin elə istək olaraq qalacağına da şübhə yoxdur. O zaman bu korrupsiyadan başı dumanlanan eks-nazirə məsləhətimiz odur ki, onsuz da rüsvay olmuş adını bir az da biabır eləməsin. Deməsi bizdən Müdriklik yaşında daha ağıllı mövqe seçib-seçməmək qalır onun ixtiyarında. Amma ataların sözünü də unutmasın: "Mıxı çıxaran at mıxı bir yerə vuranda, beş də özünə dəyər!"

# Yaşamaq hüququ

***Yaşamaq hüququ bu sahədə olan bütün digər hüquq və azadlıqların özülünü təşkil edir. O, dünya sivilizasiyasının mütləq dəyəridir, çünki insan məhv olarkən, bütün digər hüquqlar da öz məna və əhəmiyyətini itirir.***

A.Mustafayevanın fikrincə, bu fundamental hüququ iki aspektdə nəzərdən keçirmək mümkündür: birincisi, dövlət, onun nümayəndələri və ya ayrı-ayrı şəxslər tərəfindən şəxsiyyətin həyatının hər hansı qanunsuz qəsddən qorunması hüququ kimi; ikincisi, şəxsiyyətin öz həyatı ilə sərbəst rəftar etmək hüququ kimi. Mahiyyətcə, qalan bütün digər hüquqlar bu təməl hüququn ətrafında bu və ya digər şəkildə birləşirlər. Ünsiyyətin və cəzanın dözülməz növlərindən azad olmaq hüququ kimi, sosial təminat, sağlamlığın qorunması və əlverişli ətraf mühit hüquqları da onun səmərəli gerçəkləşməsini təmin edən əlavə alətlər qismində çıxış edir. D.Uiklerin fikrincə, dövlət bu hüquqları tanımalı və bütün mövcud vasitələrlə insan həyatı üçün əlverişli şərait yaratmalıdır. Təsadüfi deyil ki, şəxsiyyətin həyat və sağlamlığına qarşı yönələn cinayətlər, xüsusilə, ağır cinayət cəzaları kateqoriyasına aiddir. Dövlətin müstəsna cəza tədbiri kimi ölüm cəzasını tətbiq etmək hüququ bu sahədə ayrıca problemdir.

Yaşamaq hüququ ölüm cəzasının məhdudlaşdırıcısı kimi də çıxış edir. Avropa Şurasına daxil olan bütün üzv dövlətlər dinc dövrdə ölüm cəzasının ləğvinə aid olan "İnsan hüquqlarının müdafiəsi haqqında, Avropa Konvensiyasının 6 nömrəli Protokolunu dərhal imzalamalı, daxil olduqdan üç ildən gec olmamaq şərtilə ratifikasiya etməli və daxil oldu və daxil olduqları gündən ölüm hökmlərinin icrasına moratorium müəyyənləşdirməlidirlər".

Hazırda Azərbaycan Respublikasında ölüm cəzası müstəsna cəza tədbiri kimi ləğv edilmişdir. Yaşamaq hüququ hər kəs və hamı üçün təbii hüquq və rifahdır. Müxtəlif mənbələr sübut edir ki, Avropada ölüm cəzasının ləğv edilməsi və ya saxlanması ilə bağlı müzakirələr hələ XVIII yüzillikdən aparılır. Sakramental deyim olan "öldürmək olmaz bağışlamaq" ifadəsində vergül işarəsini harada qoymaqla bağlı yüzlərlə yanaşma olsa da, hələ də vahid fikir yoxdur. Qeyd etmək lazımdır ki, dünyanın əksər ölkələrində alimlər, siyasətçilər, hüquqşünas-praktiklər, ictimai xadimlər ölüm cəzası kimi bir cəzanın mövcudluq hüququ ətrafında mübahisələr aparırlar.

Yəqin ki, bu mübahisələr hələ uzun sürəcək. Düzdür, onların əsası var, çünki ortaya belə bir sual çıxır: Azərbaycan Respublikasının qanunvericiliyində də təsbit olunmuş "yaşamaq hüququ" anlayışını Azərbaycanın beynəlxalq, yaxud Avropa öhdəlikləri ilə necə uyğunlaşdırmalı? "Həyat", həmçinin, "fiziki toxunulmazlıq və şəxsi həyatın toxunulmazlığı", müvafiq olaraq, yaşamaq, fiziki toxunulmazlıq və şəxsi həyatın toxunulmazlığı üzrə mülki və siyasi hüquqlara aiddir. "Təhsil və informasiya" təhsil üzrə iqtisadi və sosial hüquqa, eləcə də, informasiya üzrə mülki və siyasi hüquqa aiddir. Nəhayət, "qidalanma, yaşayış yeri və iş" qidalanma, yaşayış yeri və işləmək üzrə iqtisadi və sosial hüquqlara aiddir.

N.A.Orlovun fikrincə, insan həyatı insan hüquqları üzrə müxtəlif beynəlxalq sazişlərin (mülki və siyasi) əksəriyyətində təsbit edilmiş yaşamaq hüququ ilə qorunur. Həyat mühüm başlıca dəyər olduğundan, adətən, yaşamaq hüququ bütün insan hüquqları arasında ən vacibi kimi tanınır. Yaşamaq hüququ insanın, hər şeydən öncə, öldürülmədən (hər halda, məhkəməsiz öldürülmədən) müdafiəsini ehtiva edir. Lakin bu hüququn tətbiq sahəsi, tədricən, o dərəcədə genişlənmişdir ki, buraya doyunca yeməmək, epidemiyalar və atom müharibələri də daxil edilmişdir.

Ortaya belə bir sual çıxır: "Üaşamaq hüququ və sağlamlıq hüququnun oxşar və fərqli cəhətləri hansılardır? Bəziləri belə hesab edirlər ki, yaşamaq hüququ, əsasən, həyat və ölümlə bağlı məsələlərə toxunur, sağlamlıq hüququ isə sağalmaq imkanı və ya sağlamlığın möhkəmləndirilməsi ilə əlaqədar durumlara aiddir. Belə ki, yaşamaq hüququ daha çox mütləq anlayışlarla bağlıdırsa, sağlamlıq hüququ isə insanın rifahı ilə bağlı olan nisbi problemlərlə əlaqədardır. Lakin bu iki hüququ bir-birindən tam fərqləndirmək ən azı ona görə olmaz ki, sağlamlıq hüququ sağlamlığın bərpasının artıq mümkün olmadığı hallarda tətbiq edilə bilər. Bundan başqa, insanın bu hüquqları arasında mütləq hədd qoyulması onların tətbiq sahəsinin daha praktik təhlilinə mane olur.

Bir çox hallarda "həyat" "sağlamlıq"la sıx bağlıdır. N.A.Orlovun qeyd etdiyi kimi, əgər insanı güllələyiblərsə, deməli, onun sağlamlığına da ziyan vurublar. Bununla belə, əsaslandırılmamış ölümdən müdafiə sağlamlıq hüququna daxil deyil. Digər tərəfdən, yaşamaq hüququna, eyni zamanda, sağlamlıq hüququnun tətbiq sahəsinə də daxil olan aspektlər daxildir. Belə ki, hər iki hüququn məqsədi uşaq ölümünün qarşısının alınmasından ibarətdir. Sağlamlıq hüququ və yaşamaq hüququ eyni şəraitlərdə eyni müdafiəni təmin edərək, müəyyən dərəcədə bir-birinə qovuşurlar.

İnsanın iki hüququnun kəsişməsi hər şeydən öncə, uşaq ölümünün səviyyəsini aşağı salmaq və həyatın orta uzunluğunu artırmaq üçün doyunca yeməməkdən və epidemiyalardan müdafiə olunmaq məsələsində baş verir. Amerika alimi P.Robinson iddia edirdi ki, yaşamaq hüququ "insana aclıqdan, soyuqdəymədən və ya tibbi yardımın yetərincə olmaması səbəbindən ölməyəcəyinə təminat vermir". Həmin vaxtdan sağlamlıq hüququnun həcmi, belə məlum olur ki, xeyli genişlənib. İnsan Hüquqları Komitəsi (İHK) özünün 6 nömrəli Prinsipial şərhində belə bir nəticəyə gəlmişdir ki, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın (MSHBP) bütün iştirakçı dövlətləri üçün, "xüsusən də, doyunca yeməməklə və epidemiyalarla mübarizə yolu ilə uşaq ölümünün aşağı salınması və həyatın orta uzunluğunun artırılması üzrə bütün mümkün olan aktiv tədbirləri görmək" çox məqsədəuyğun olardı.

İHK-nın 6 saylı Prinsipial şərhində göslərilir ki, "nüvə silahının hazırlanması, sınaqdan keçirilməsi, istehsalı, bu silaha malik olmaq və onun geniş yayılması hazırda insan həyatı üçün üzləşməli olduğumuz ən ciddi təhdidlərdən biridir", ona görə də, dövlətlər "dünyanın bu təhdiddən qurtarması üçün təcili tədbirlər görməlidirlər".

A.Mustafayeva yazır: "Beləliklə, İHK nüvə silahından müdafiəni yaşamaq hüququnun bir hissəsi hesab edir. Bununla əlaqədar olaraq, baxılmaq üçün şəxsi qaydada İHK-yə verilmiş iki şikayət maraq kəsb edir. "Port Houp Kanada hökumətinə qarşı" işində iddiaçı təkidlə bildirirdi ki, radioaktiv tullantıların Port Houp şəhərində saxlanılması bu şəhərin indiki və gələcək nəsillərinin həyatını təhdid edir. "Vayere Borde Fransa hökumətinə qarşı" işində iddiaçılar bəyan edirdilər ki, Fransa hökumətinin Cənubi Sakit okean regionunda nüvə partlayışları seriyasını sınaqdan keçirmək niyyəti onların yaşamaq hüququnu, şəxsi və ailə həyatının kənar müdaxilədən qorunması hüququnu təhdid edir. Hər iki şikayətin formal səbəblərə görə rədd edilməsinə baxmayaraq, bu şikayətləri fiziki şəxslərin İHK-yə edilən şikayətlərinə baxılması prosedur kontekstində atom silahı və radioaktiv istehsalat tullanlıları ilə bağlı problemin nəzərdən keçirilməsinin başlanğıcı kimi qiymətləndirmək olar".

Məlum olduğu kimi, insanın fiziki toxunulmazlığı ilə bağlı bütün məsələlər, bir qayda olaraq, işgəncələrdən, sərt, qeyri-insani və alçaldıcı rəftardan müdafiə üzrə mülki hüququn müdafiəsi altındadır. İnsanın fiziki toxunulmazlığının müdafiə olunması sağlamlıq hüququnun tətbiq sahəsinə aid edilirsə də, bəs hansı dərəcədə aid edilir - məsələsi vacib və mürəkkəbdir. Məsələn, İtaliya Konstitusiyasında sağlamlıq hüququ tibbi yardım xidmətlərini əldə etmək hüququ kimi və eyni zamanda da, insanın toxunulmazlığının müdafiəsi hüququ kimi başa düşülür.

N.A.Şergenqin fikrincə, belə durumlardan birincisi, məhbusların cəzalandırılması və ya onlarla pis rəftar edilməsi qismində məhbusların tibbi xidmətdən məhrum edilməsidir. Bəzi həbsxanalarda bu yolla məhbuslar təkcə cəzalandırmır, həm də onlardan özləri üçün gərəkli olan məlumatı almağa çalışırlar. Döymək, zorlamaq, qida və sudan məhrum etmək kimi hərəkətlər də tibbi xidmətdən məhrumetmə ilə müqayisə oluna bilər. İnsan Hüquqları üzrə Strasburq Məhkəməsi və İHK tibbi xidmətdən məhrumetməni və bu kimi digər əməlləri İnsan Hüquqları üzrə Avropa Konvensiyasının (İHAK) 3-cü və MSHBP-nin 7-ci maddəsi baxımından, qeyri-insani rəftarla eyniləşdirmişdir.

Sağlamlıq hüququnu müəyyənləşdirən bəzi maddələrdə də gigiyena, təmiz içməli su hüququ və məqbul sanitar şərait haqqında müddəalar var. Əgər sağlamlıq hüququna əsaslansaq, onda cəmiyyətin bütün digər qrupları kimi məhbuslar da məqbul sanitar şəraitdə yaşamaq hüququna malikdirlər. Deyə bilərik ki, bu baxımdan, həmin hüquq qeyri-insani və alçaldıcı rəftarın qadağan edilməsinin təmin olunmasına oxşar olan müdafiəni təmin edir.

A.Mustafayeva yazır: "Məlumdur ki, sağlamlıq hüququnun qeyri-insani və qəddarcasına rəftarın qadağan olunması ilə sıx bağlı olduğu daha bir durum həbsdə qalmağın özünün insanın sağlamlığına mənfi təsir




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

göstərməsi zamanı yaranır. Bir sıra hallarda hakimiyyət məhbusun səhhətinə mənfi təsirinə görə qeyri-insani rəftara qoyulan qadağanı pozduğu üçün günahlandırılmışdır. Belə ki, İnsan Hüquqları üzrə Avropa Komissiyasının nəzərdən keçirdiyi "Patanc İtaliya hökumətinə qarşı" işində iddiaçı bildirirdi ki, onun ağır depressiya halında həbs olunması İHAK-ın 3-cü maddəsinin pozulması deməkdir. Komissiya İtaliya hökumətinə iddiaçının sağaldılması üçün vacib olan bütün tədbirləri dərhal görməyi tapşırmışdır. Hollandiya məhkəmələrindən birinin buna oxşar qərarını da xatırlamaq olar. Qərarda deyilirdi ki, müəyyən şəraitlərdə cinayət cəzası, İHAK-nin 3-cü maddəsi baxımından, qeyri-insani rəftara bərabər ola bilər. Analoji olaraq, sağlamlığa həsr olunmuş beynəlxalq paktların bəzi maddələrində "psixi sağlamlıq" vəziyyəti xatırlanır. Belə ki, İSMHBP-nin 12-ci maddəsində "fiziki psixi sağlamlığın ən yüksək mümkün səviyyəsi" barədə danışılır".

Abort problemi hüquq-müdafiə kontekstində çox ziddiyyətlidir. Bir tərəfdən, hələ dünyaya gəlməmiş uşağın yaşamaq hüququna hansı dərəcədə malik olması məsələsi ortaya çıxır. Digər tərəfdən də, dərk etməliyik ki, ananın öz bədəni ilə istədiyi kimi rəftar etməyə haqqı çatırmı və bu səbəbdən də, o, fiziki toxunulmazlıq və şəxsi həyat hüququna malikdirmi? Bu cür qeyri-müəyyənliyin nəticəsi olaraq, hələ doğulmamış uşağın və ananın hüquqlarını tarazlaşdırmaq, onların arasında seçim etmək çox çətindir. Təfərrüatına varmadan, yalnız onu qeyd edək ki, bizim tədqiqatımız üçün ananın fiziki toxunulmazlıq və (ya) şəxsi həyatının toxunulmazlığı hüququ ilə onun sağlamlıq hüququ arasında müəyyən əlaqənin mövcudluğu vacibdir. Bu hüququn hələ doğulmamış uşağın hipotetik yaşamaq hüququ tərəfində deyil, əsasən, ananın fiziki toxunulmazlığının və şəxsi həyatının müdafiəsində olduğu bir neçə şərait təsəvvür edək.

Hər şeydən öncə, hamilə qadının sağlamlığı təhlükə altındadırsa, o, yəqin ki, abort da daxil olmaqla, müvafiq tibbi yardım hüququna malikdir. İkincisi, tibbi yardım hüququ səhiyyə xidmətləri hüququnu, o cümlədən, abort üçün zəruri olan vasitələr əldə etmək hüququnu da ehtiva edir. İkinci tezis birincidən daha genişdir və əlbəttə ki, "abort hüququ" beynəlxalq səviyyədə, çətin ki, sağlamlıq hüququnun bir hissəsi kimi tanınsın. Patrik Vilyamsın və Şaron Andersonun fikrincə, insan hüquqları ilə bağlı beynəlxalq müqavilələrə əməl olunmasına nəzarət üzrə müxtəlif orqanlar beynəlxalq hüquqda abortların statusu haqqında məsələyə vaxt sərf etməməyə çalışırlar. Onlar açıq-aşkar bu və ya digər ölkəni abortların qadağan edilməsinə vadar etmək istəmirlər. Ona görə də, belə bir nəticəyə gəlmək olar ki, sağlamlıq hüququ dövlətlərin üzərinə abortların yalnız qadınların sağlamlığı məqsədilə təhlükəsiz şəraitlərdə aparılmasına nəzarət etmək öhdəliyi qoyur. Buna necə nail olunması isə konkret ölkələrin öz ixtiyarındadır.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**



## YAP Masallı rayon təşkilatı Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96 illiyilə əlaqədar silsilə tədbirləri davam etdirir



***YAP Masallı rayon təşkilatı Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə cüdo idman növü üzrə uşaqlar, yeniyetmələr və gənclər arasında rayon birinciliyi keçirilib.***

Tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev açaraq, Ulu Öndər Heydər Əliyevin dövlətçiliyimizin qorunması istiqamətindəki xidmətlərindən söz açaraq bildirib ki, Dahi Öndər Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur.

S.Əliyev Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə, eləcə də, idman sahəsində aparılan uğurlu islahatlardan yarış iştitakçılarını məlumatlandırıb.

Turnirin yekununda müxtəlif çəki dərəcələrində qaliblərə YAP Masallı rayon təşkilatı tərəfindən diplomlar, medallar və qiymətli hədiyyələr təqdim olunub.

Eyni zamanda, Masallı rayon ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri arasında kross yarışı üzrə rayon birinciliyi də keçirilib.

Qızlar arasında I yeri Qəriblər kənd tam orta məktəbin şagirdi Sevgi Məmmədova, II yeri Lürən kənd tam orta məktəbin şagirdi Zeynəb Hüseynova, III yeri Banbaşı kənd tam orta məktəbin şagirdi Bilqeys Məmmədova, oğlanlar arasında I yeri Qızlavar kənd tam orta məktəbin şagirdi Ceyhun Məmmədzadə, II yeri Şərəfə kənd tam orta məktəbin şagirdi Rəvan Ocaqverdiyev, III yeri Qəriblər kənd tam orta məktəbin şagirdi Məhəbbət Bayramov tutubdur.

Sonda qaliblər Masallı RTŞ tərəfindən diplom və medallarla mükafatlandırılıblar.

***R.HÜSEYNOVA***

## ELAN

Gürcüstan SSR Saqareco rayonunun hərbi komissarlığı tərəfindən Hacalıyev Əlibala Habil oğlunun adına verilmiş MEV 004553 saylı hərbi bileti itdiyi üçün etibarsız sayılır.

***

ADPU-nun Biologiya müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Hüseynova Ülkər Asif qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

ADPU-nun Tarix ixtisası üzrə I kurs tələbəsi Balakişiyev Yelmar Tahir oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin III kurs tələbəsi Əliyeva Validə Mehman qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.


# Səs

Son səhifə 7 may


# Tarixi şəxsiyyət, əbədiyaşar Lider

***Ümummilli Lider, Yeni Azərbaycan Partiyasının banisi Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə YAP İmişli rayon təşkilatında tədbir keçirilib.***



Tədbiri giriş sözü ilə açan YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayev Azərbaycan dövlətçiliyinin söykəndiyi təməl prinsipləri Ulu Öndər Heydər Əliyev tərəfindən yaradıldığını qeyd edib. S.Ağayev, onu da vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev özünün titanik fəaliyyəti və qətiyyətli qərarları ilə müstəqilliyimizin formalaşmasında, ölkədə sabitliyin əldə olunmasında, həmçinin, Azərbaycanın dünya ölkələri arasında nüfuzunun yüksəldilməsində müstəsna xidmətlər göstərib. Məhz buna görə də, xalqımız Ümummilli Lider Heydər Əliyevi müasir Azərbaycan dövlətinin memarı və qurucusu adlandırıb. Ümummilli Lider Heydər Əliyevin müdrikcəsinə söylədiyi "Azərbaycan dünyaya günəş kimi doğacaq" fikrini xatırladaraq, Ulu Öndərin layiqli davamçısı ölkə Prezidenti İlham Əliyevin sayəsində bunun artıq reallıq olduğunu vurğulayıb.




Tədbirdə rayon təhsil şöbəsinin müdir müavini Vahid Tağıyev rayon təşkilatının qadınlar şurasının sədri Validə Zülfiqarova, rayon təşkilatı gənclər birliyinin sədri Ziya Paşayev və başqaları çıxış edərək vurğulayıblar ki, Ümummilli Liderin 1993-cü ildə hakimiyyətə möhtəşəm qayıdışı ölkəmizi, xalqımızı, dövlətçiliyimizi və müstəqilliyimizi qarşılaşdığı ağır günlərdən qurtardı. Bu gün bu uğurlu siyasətin layiqli davamçısı ölkə Prezidenti İlham Əliyevin apardığı mütərəqqi siyasət Azərbaycan xalqının həyatında, həmçinin, hər bir Yeni Azərbaycan Partiyası üzvünün daha fəal olmasındı öz töhfəsini verməkdədir. Qeyd olunub ki, bu gün rayon təşkilatında gənclərin sayı artmaqda davam edir.

Sonda Ümummilli Lider, Yeni Azərbaycan Partiyasının banisi Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə keçirilən silsilə tədbirlərin qalibləri və bir qrup partiya fəalları Fəxri Fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

***Rəfiqə HÜSEYNOVA***

## Ağcabədidə Ümummilli Liderin anadan olmasının 96-cı ildönümü münasibətilə keçirilən müsabiqəyə yekun vurulub





Ulu Öndər Heydər Əliyevin ölkəmizin müstəqilliyinin qorunub- möhkəmləndirilməsində, demokratik-hüquqi dövlətin qurulmasında və onun hərtərəfli inkişafında müstəsna xidmətləri xalqımız tərəfindən daim yüksək fəxr hissi ilə qeyd olunur, Dahi Rəhbərin əziz xatirəsi hədsiz məhəbbətlə və böyük ehtiramla yad edilir. Müasir tariximizdə danılmaz rolu olan Ulu Öndər Heydər Əliyevin doğum günü münasibətilə ölkəmizin hər yerində müxtəlif tədbirlər keçirilir. O cümlədən, silsilə tədbirlərin davamı olaraq, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə YAP Ağcabədi rayon təşkilatının keçirdiyi daha bir müsabiqəyə-məktəblilər arasında bədii qiraət müsabiqəsinə yekun vurulub.

Münsiflər heyətinin qərarına əsasən, Ağcabədi şəhər 6 saylı tam orta məktəbin VI sinif şagirdi Qasımov Çovğun Heydər oğlu I, Salmanbəyli kənd tam orta məktəbin IX sinif şagirdi Həsənov Rəşadət Təvəkkül oğlu II, Təzəkənd kənd tam orta məktəbin IX sinif şagirdi Əsgərli Əlvan Habil oğlu, Qiyamadınlı kənd tam orta məktəbin VII sinif şagirdi Həsənova Kəklik Vüqar qızı III yerə layiq görülüblər. Müsabiqənin qalibləri YAP Ağcabədi rayon təşkilatının Fəxri Fərmanları və hədiyyələri ilə mükafatlandırılacaqdır.

***ZÜMRÜD BAYRAMOVA***


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**